Günəş Şərqdən doğur!

№ 86 (5367), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 19 may 2021-ci il (çərşənbə)



## Ordumuz hər an ərazi bütövlüyünü qorumağa hazırdır

Təlimlər region dövlətlərinə, xüsusilə Ermənistana bir mesajdır

(Səh.4)

**Günün içindən...**



### "Belarus və Azərbaycan əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir"

Prezident İlham Əliyev Belarusun müdafiə nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Belarus Respublikasının müdafiə naziri Viktor Xrenini qəbul edib.

(səh.2)

### Ermənistanın səyləri nəticə verməyəcək

"Azərbaycan NATO və AB ilə əməkdaşlığını davam etdirəcək"



Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Brüsseldə NATO baş katibinin müavini Mirça Geoana ilə görüşüb.

(səh.3)

# İyun ayından toylara icazə verilə bilər



## "Amma müəyyən normativ qaydalara əməl olunmalıdır"

**Artıq bir ildən çoxdur ki, ölkəmizdə toy və yas mərasimlərinin keçirilməsi qadağandır. Səbəb isə bütün dünyanı cənginə alan pandemiyadır.**

Yalnız toy və yas mərasimləri deyil, müxtəlif tədbirlərin də keçirilməsinə icazə verilmir. Bu baxımdan çoxlu sayda vətəndaşımızın sadə nikahla ailə qurmasının şahidi olduq.

(səh.4)



# Dmanisidə barışıq çox kövrəkdir



## Gürcüstan hakimiyyəti problemi kökündən həll etmədi

(səh.8)

### Okeanın o tayından gələn telefon zəngi...

Amerikalı müşavirin diqqətinə bəzi məsələlər çatdırıldı

(səh.2)

### Dünyada qlobal dəyişikliklər baş verir

"Zəngəzur dəhlizi Çindən İngiltərəyə uzanan geosiyasi planın tərkib hissəsidir"

(səh.7)

### "İnanın, hazıram Bakıdakı mənzilimi satım"

Tahir İmanov: "Onun pulunu Şuşada babamın evinin bərpasına, yenidən qurulmasına sərf edim"

(səh.9)

### Daha 432 nəfər koronavirusa yoluxub

10 nəfər vəfat edib, 1024 nəfər müalicə olunaraq sağalıb

(səh.8)

# "Belarus və Azərbaycan əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir"

## Prezident İlham Əliyev Belarusun müdafiə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Belarus Respublikasının müdafiə naziri Viktor Xrenini qəbul edib.**

**Belarusun müdafiə nazirini salamlayan Prezident İlham Əliyev dedi:**

-Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq. Hərbi sahədə əməkdaşlığımızla bağlı məsələləri həmkarınızla ətraflı müzakirə edəcəksiniz. Bizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bunu bir daha təsdiq etdi. Biz onunla çox ətraflı söhbət etdik, ikitərəfli münasibətlərin geniş gündəliyinə dair danışıqlar apardıq, o cümlədən ölkələrimiz arasında artıq qədim tarixə malik olan hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu istiqamətdə, həmçinin bütün başqa istiqamətlərdə əməkdaşlığı davam etdirmək əzmindəyik. Ona görə ki, bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir.

Mən Belarus şirkətlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştiraka dəvət etmişəm. Bir qədər sonra mən sizə həmin ərazilərdən çəkilmiş fotoşəkilləri göstərərəm. Onlar 30 ilə yaxın işğala məruz qalmış torpağımızda törədilmiş vandalizmin və dağıntıların səviyyəsini əyani şəkildə göstərir. Mənim bildiyimə görə, artıq bu məsələlərdə iştirak etməyə maraq var. Yaxın vaxtlarda Prezidentin səfəri zamanı əldə edilmiş razılaşmalar çərçivəsində Azərbaycanın kənd təsərrüfatı nazirinin rəhbərliyi ilə nümayəndə heyəti Belarusa səfər edəcək. Lakin, bütün başqa istiqamətlər üzrə də bundan sonra fəal əməkdaşlıq edəcəyik və bir-birimizi dəstəkləyəcəyik.

Dediyim kimi, ölkələrimiz arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq qədim tarixə malikdir və çox yaxşı nəticələr verir. Buna görə, əminəm ki, sizin həmkarlarınızla diskussiyalar, fikir mübadiləsi bu sahədə qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi işində faydalı olacaq. Bir daha xoş gəlmisiniz.

**Belarusun müdafiə naziri Viktor Xrenin dedi:**

-Sağ olun, cənab Prezident. İlk növbədə, Sizinlə görüşmək, Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun adından Sizi və Azərbaycan xalqını salamlamaq, sülh və firavanlıq arzularını çatdırmaq imkanına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yüksək səviyyədə səfərlər mübadiləsi həmişə onu göstərir ki, bizim qarşılıqlı fəaliyyətimiz və əməkdaşlığımız yaxşıdır və gözəldir. Bizim dövlətimizin başçısı demişkən, Azərbaycan Belarusun şəxsində Mərkəzi Avropada özünə etibarlı dayaq, Belarus isə Azərbaycanın şəxsində Qafqazda etibarlı dost tapıb. Prezidentin dediyi kimi, bizim parlaq əməkdaşlığımız var. Deyə bilərəm ki, o, buna görə çox fəxr edir.

Azərbaycan bizim ənənəvi dostumuz və müttəfiqimizdir, həm regional, həm də beynəlxalq siyasi aləmdə həmişə mühüm rol oynayıb. Dünya miqyasında bizi dəstəklədiyinizə, bizə siyasi dəstək verdiyinizə görə Sizə şəxsən öz adımızdan, Belarus Respublikası adından təşəkkürümü bildirmək istərdim.

Cənab Prezident, Dağlıq Qarabağ zonasında hərbi əməliyyatların dayandırılması üçün Sizin əldə etdiyiniz razılaşmaları da alqışlayırıq. Biz, sadəcə, əminik ki, Sizin müdrik rəhbərliyinizlə bu, həmin regionun daha da inkişaf etməsi və Sizin diyarda sülhün möhkəmlənməsi üçün yaxşı təməl olacaq.

## Oljas Süleymenov "Şərəf" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev Oljas Süleymenovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə Oljas Süleymenov "Şərəf" ordeni ilə təltif edilib.

## Milli Məclis bir sıra məhkəmələrə yeni hakimlər təyin edəcək



**Azərbaycanda bir sıra məhkəmələrə yeni hakimlərin təyin edilməsi məsələsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.**

Bu barədə məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında müzakirə edilib.

Belə ki, komitə iclasında Azərbaycan Respublikası Ali Məhkəməsi və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi; Bakı, Sumqayıt və Şirvan Apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi; Gəncə və Şəki Apellyasiya məhkəmələri hakimlərinin təyin və azad edilməsi haqqında təqdimatlar müzakirə olunub.

*Müzakirələrdən sonra baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.*

# Okeanın o tayından gələn telefon zəngi...

## Amerikalı müşavirin diqqətinə bəzi məsələlər çatdırıldı

Mayın 17-də ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan Prezident İlham Əliyevə zəng edib. Tərəflər arasındakı telefon danışığında ikitərəfli münasibətlər barədə məmnunluq ifadə olunub. Bu münasibətlərin hər iki dövlət və bölgə üçün sülh və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyəti qeyd olunub.

Ceyk Sallivan Azərbaycan və Ermənistan sərhədində yaşanan son gərginlik ilə bağlı narahatlığını da bildirib və bu kimi fikir ayrılıqlarının sülh yolu ilə həll olunmasının vacibliyini vurğulayıb. O, həmçinin beynəlxalq sərhədin demarkasiyası üçün tərəflərin konstruktiv müzakirələrinə ehtiyac duyulduğunu qeyd edib. Prezident İlham Əliyev bölgədə sülh və sabitliyin təmin olunmasına sadiq qaldığımızı bildirib. Ölkə rəhbəri Ermənistanın sərhəd gərginliyi ilə bağlı qeyri-adekvat reaksiyasının və bu məsələni beynəlmiləlləşdirmək cəhdlərinin bölgədə gərginliyin artmasına gətirib çıxara biləcəyini qeyd edib.

**Mühüm zənglə bağlı "Şərq"ə fikirlərini bəyan edən millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu deyib ki, telefon zəngi hər şeydən öncə ABŞ-Azərbaycan münasibətlərinin inkişafa meyilli olmasını göstərir.** Deputat xatırladıb ki, bundan öncə də Amerikanın dövlət katibi E.Blinken Prezidentimizlə əlaqə saxlamışdı: "Blinkenlə danışıqlarda ABŞ-Azərbaycan arasındakı münasibətlərin vacibliyi vurğulanmış və əlaqələrin inkişafının hər iki tərəfin marağında olduğu bəyan edilmişdi. Sallivanın da zəngi bu qəbildəndir. Amerika rəsmisinin diqqət çəkdiyi əsas məqam son günlər Azərbaycan-Ermənistan sərhədində yaşanan olaylar oldu. Müşavir bu məsələnin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi. Əlbəttə, zəngin məqsədi rəsmi Bakıya hansısa tövsiyələrin verilməsi deyil. Ümumiyyətlə, buna heç bir əsas yoxdur. Cənab Prezidentin mövqeyi hər zaman ondan ibarət olub ki, Ermənistanla bütün məsələlər ədalətli və dinc danışıqlar vasitəsi ilə çözülsün. Lakin İrəvan qeyri-konstruktiv davranışlarından və regiondakı dağıdıcılıq missiyasından əl çəkməyib. Ona görə də bəzən Azərbaycan məcbur qalaraq Ermənistanla güc dilində danışır. Ermənistan hələlik başqa dildən anlamır".



"Ermənistanın sərhəd məsələsini beynəlmiləlləşdirmə cəhdləri yolverilməzdir"

Parlament üzvü bəyan edib ki, postmüharibə dövründə həllini gözləyən mühüm məsələlərlə bağlı addımlar atılır. 10 noyabr birgə Bəyannaməsi də Azərbaycan-Ermənistan arasında sərhədlərin müəyyənləşməsini tələb edir: "Azərbaycan güc yolu ilə torpaqlarını azad etdikdən sonra dövlət sərhədlərinin mühafizə sistemini yaratmalıdır. Ermənistan bunu dərk etməli və qəbul etməlidir. İki ölkənin sərhədləri mütləq delimitasiya və demarkasiya olunmalıdır. Başqa yol yoxdur. Üçtərəfli sazişə imza atan tərəflərdən biri - Rusiya da həm prezident, həm də xarci işlər naziri səviyyəsində sərhədlərin müəyyən olunmasının vacibliyini vurğulayır. Hətta Rusiya XİN rəhbəri Sergey Lavrov da bildirdi ki, Moskva kartoqrafik məlumatların verilməsi ilə bağlı dəstək verməyə hazırdır. Əslində Azərbaycan da SSRİ-nin vaxtındakı kartoqrafik məlumatlara istinad edərək sərhədlərin müəyyənləşməsi işini həyata keçirir. Ermənistanın ajiotajı, məsələni beynəlmiləlləşdirmə niyyətləri isə düşmənin riyakarlığından, regionda sülhün qarşısının alınması cəhdlərindən xəbər verir".

**E.Mirbəşiroğlu qeyd edib ki, ermənilər heç bir halda yaşanmışlardan dərs almırlar. Amma belə yanaşma onların ziyanınadır:** "Azərbaycan Ordusu 16-20 may tarixlərində növbəti hərbi təlimlərini keçirdiyi halda erməni silahlı birləşmələrindən xəbərətər yoxdur. Azərbaycanın gücü yerindədir, əgər erməni tərəfi dinc yolla məsələlərin həllinə getməsələr, növbəti dərsi ala bilərlər. Dövlət başçısı İlham Əliyev bu məqamı amerikalı müşavirin diqqətinə də çatdırdı. Vurğuladı ki, Ermənistanın sərhəd məsələsini beynəlmiləlləşdirmə cəhdləri yolverilməzdir. İndiyədək sərhədlərin müəyyən olunmasında hansısa qarşıdurma, silahlı insident baş verməyib. Amerika rəsmiləri erməniləri riyakarlıqdan, saxtakarlıqdan çəkindirməyə çalışmalıdırlar".

İsmayıl Qocayev

# Ermənistanın səyləri nəticə verməyəcək

## "Azərbaycan NATO və AB ilə əməkdaşlığını davam etdirəcək"

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Brüsseldə NATO baş katibinin müavini Mirça Geoana ilə görüşüb. Bu barədə təşkilatın mətbuat xidməti bildirib. Tərəflər Azərbaycan-NATO əməkdaşlığının cari məsələlərini müzakirə ediblər.



*Prezidentin köməkçisi NATO və AB-yə həqiqətləri çatdırır*

**Məlum diskusiyanı "Şərq"ə şərh edən millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bildirib ki, Azərbaycan NATO ilə uzun illərdir əməkdaşlıq edir.**

Parlament üzvü qeyd edib ki, dövlətimiz NATO Silahlı Qüvvələrinin Əfqanıstanda həyata keçirdiyi sülh əməliyyatlarına böyük dəstək verir: "Ona görə də NATO bu əməkdaşlığı yüksək qiymətləndirməlidir. Ermənistanda ağır və ciddi siyasi durum olduğuna görə, bütün dünyaya səs-küy salıblar ki, guya, Azərbaycan hərbi qüvvələri Ermənistan ərazisinə daxil olub.

Əslində onlar sərhəddəki delimitasiya prosesini öz daxili problemləri olduğu üçün dünyaya yanlış formada yayıblar. Prezidentin köməkçisi həm NATO, həm Avropa Birliyi (AB) kimi beynəlxalq təşkilatlara həqiqətlər barədə məlumat verir.

Əminəm ki, Azərbaycan NATO və AB ilə əməkdaşlığını davam etdirəcək. Beləliklə, Ermənistanın göstərdiyi səylər heç bir nəticə verməyəcək.

Məlumdur ki, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi həyata keçirir. Azərbaycan nə Ermənistanın üzv olduğu hərbi bloka, nə də NATO-ya üzv olmaq barəsində düşünür.

Siyasətimizi beynəlxalq hüquq normalarına əsasən müstəqil formada həyata keçiririk. Dövlətimiz bölgədə olan bütün qüvvələri əməkdaşlığa, səmərəli və qarşılıqlı maraqlar əsasında tərəfdaşlığa çağırır.

Prezidentin köməkçisinin NATO rəsmisi ilə danışıqlarını yüksək qiymətləndirirəm. Əminəm ki, bu danışıqlar münasibətlərimizin inkişafına xidmət edəcək".

**Yeganə Bayramova**



## Təlimlərdə PUA heyətləri təlim tapşırıqlarını icra edir

**Azərbaycan Ordusunda hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının da cəlb olunduğu təlimlər davam edir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat aparır.

PUA heyətləri həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkar edilməsi və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları icra edir.

# Şuşada yeni həyat başlayıb




## "Qarabağın tacı olan bu şəhər çox qısa zamanda öz tarixi gözəlliyinə qovuşacaq"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini mədəniyyət paytaxtı elan etməsi, Vaqif poeziya günləri və "Xarıbülbül" festivalını bərpa etməsi ölkənin mədəni həyatında əlamətdar hadisələrdən biridir".**

Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Müşfiq Məmmədli bildirib.

Deputatın sözlərinə görə, bu tədbirlər Azərbaycan mədəniyyətinin dünyada tanıdılması ilə yanaşı, gənc nəslin mədəniyyətimizi yaxından dərk etməsinə yardım edəcək: "Füsunkar gözəlliyi ilə seçilən "Cıdır düzü"ndə 1992-ci ilədək hər il may ayında "Xarıbülbül" mahnı festivalı keçirilirdi. Zamanında bu festival əhəmiyyətinə, səviyyəsinə, rəngarəngliyinə görə nəinki Azərbaycanda, bütün keçmiş sovet məkanında, hətta dünya miqyasında belə ən sanballı mədəniyyət tədbirlərindən biri sayılırdı. Bildiyimiz kimi "Xarıbülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb.

Festival hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan, SSRİ ölkələrinin iştirakı ilə keçirilib və təkcə Azərbaycanda deyil, bütün dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunurdu. Heydər Əliyev Fondunun təşkil etdiyi möhtəşəm "Xarıbülbül" festivalının bərpa olunması bir daha dünyaya sübut edir ki, Azərbaycan dövləti bölgədə dirçəlişin, mədəni rifahın və quruculuğun tərəfdarıdır".

**Parlament üzvü vurğulayıb ki, artıq Şuşada yeni həyat başlayır:** "Əminliklə vurğulamaq istərdik ki, Qarabağın tacı olan bu şəhər çox qısa zamanda öz tarixi gözəlliyinə qovuşacaq. Mədəniyyət və incəsənət xadimləri bu festivalda toplaşacaqlar. Bir sözlə, Vaqif poeziya günlərinin, "Xarı bülbül" festivalının bərpa olunması, Şuşada muğam müsabiqələrinin və festivalların keçirilməsi ölkənin mədəni həyatında vacib rol oynayacaq.

Eyni zamanda Şuşada Ramazan bayramı ilə bağlı Yuxarı Gövhərağa məscidində bayram namazının qılınması mühüm simvolik məna kəsb edir.

İndi Şuşanın Yuxarı Gövhərağa məscidində, işğaldan azad olunmuş digər ərazilərimizdə azan səsləri ucalır. Artıq məscidlərdə bayram namazı qılınır. Cənab prezident İlham Əliyevin qeyd etdiyi kimi "Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əkstəqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik".

İndi bizim qarşımızda istər dövlət olaraq, istərsə də millət olaraq bir vəzifə dayanır. Cənnət Qarabağımızı dirçəltmək. Qısa müddət ərzində ölkə rəhbəri tərəfindən verilən qərarları analiz etdikdə əminliklə deyə bilərik ki, çox qısa zamanda işğaldan azad edilmiş ərazilər abadlaşacaq, həmin torpaqlara həyat yenidən dönəcəkdir".

**Yeganə Bayramova**



# Azan səsi...

## Milli qürurumuz, mənliyimiz, mədəniyyətimiz dirçəlir

**"Şuşada iki gün davam edən "Xarıbülbül" musiqi festivalının keçirilməsi bizim üçün çox böyük tarixi-mənəvi və mədəni hadisədir".**

Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Anar Məmmədov deyib. Deputat bildirib ki, Şuşa mədəniyyətimizin beşiyidir, orada həmişə ədəbi günlər, yaradıcılıq gecələri, çoxsaylı mədəni tədbirlər keçirilib. Bu baxımdan "Xarıbülbül" musiqi festivalının bərpa olunması çox böyük məna kəsb edir: "Bu festival sonuncu dəfə 1989-1990-cı illərdə keçirilmişdi. Ermənistanın Azərbaycana təcavüzündən sonra bu mədəniyyət tədbiri sadəcə fotolarda və video kadrlarda qalmışdı. Lakin 30 ildən sonra Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri işğaldan azad edildi. Azadlığına qovuşan, 270 illik tarixi olan Şuşa şəhəri yenidən bərpa edilir, dirçəlir, əvvəlki şöhrətinə qaytarılır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin musiqi festivalının açılışında qeyd etdiyi kimi, xalqımız bu günü 30 il səbirsizliklə gözlədi. Heç vaxt torpaqlarımızın işğalı ilə barışmadı, nəyin bahasına olursa-olsun ərazilərimizin işğalçılardan azad ediləcəyinə tam əmin idi".

**A.Məmmədov qeyd edib ki, Prezidentin tövsiyəsi ilə builki "Xarıbülbül" festivalı həm də Azərbaycan multikulturalizm ənənələrinin simvoluna çevrildi:** "Ramazan bayramına təsadüf edən bu festivalda Şuşada azanın verilməsi, bayram namazının qılınması, yeni məscidin təməlinin qoyulması Şuşa şəhərinin ruhunun, tarixi kimliyinin bərpası idi. Dövlət rəhbəri bu şəhəri mədəniyyətimizin paytaxtı elan etməklə Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı. Qarabağın incisi, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa ölkəmizin qədim tarixini özündə yaşadır. Bu şəhər milli mədəniyyətimizin mərkəzi, poeziyamızın və musiqimizin beşiyidir. Əbəs yerə Şuşanı Qarabağın döyünən qəlbi adlandırmırlar. Şuşanın dirçəlməsi milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin bərpa edilməsi, yenidən yüksəliş mərhələsinə daxil olmasıdır".

**İsmayıl**

# Ordumuz hər an ərazi bütövlüyünü qorumağa hazırdır



## Təlimlər region dövlətlərinə, xüsusilə Ermənistana bir mesajdır

**Artıq iki gündür ki, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunda qoşun növlərinin cəlb edilməsi ilə təlimlər keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, müdafiə nazirinin rəhbərliyi ilə keçirilən təlimə 15000 nəfərədək şəxsi heyət, 300-dək tank və digər zirehli texnika, 400-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri, minaatan və tank əleyhinə vasitələr, 50-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.

**Tərxis Olunmuş Hərbçilərin Gənclər Maarifləndirmə İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənlinin "Şərq"ə açıqlamasına görə, bütün hərbi təlimlər döyüş hazırlığımızın yüksək səviyyədə olması üçün həyata keçirilir:** "Təlimlər Ali Baş Komandanın təsdiq etdiyi plana uyğun baş tutur. Ordumuz müxtəlif fəsillərdə və ərazilərdə hərbi hazırlıqlarını davam etdirir. Təlimlər əsgər hazırlığından tutmuş, nazirlik səviyyəsinə qədər keçirilir.

Son dövrlər qardaş Türkiyə ilə keçirilən təlimlər antiterror əməliyyatları, qanunsuz silahlı birləşmələrin məhv edilməsi və qoşunlar arasında koordinasiyanı ortaya qoyur. Vətən müharibəsində əldə edilmiş təcrübə də hərbi təlimlərimizdə növbəti dəfə tətbiq edilir. Eyni zamanda müasir tələblərə uyğun olaraq ordu hazırlığının yüksək səviyyədə olması üçün qarşıya qoyulan bütün tapşırıqların yerinə yetirilməsinə görə, bu təlimlərin əhəmiyyəti böyükdür. Sözügedən təlimlər region dövlətlərinə, xüsusilə Ermənistana bir mesajdır ki, yenidən hansısa fikirlərə düşərlərsə, ordumuz hər an ərazi bütövlüyümüzü qorumağa hazırdır. İstənilən qüvvələrə layiqli cavab verməyə qadirik. Vətən müharibəsində bunu ən yüksək səviyyədə sübut etdik".

**Yeganə Bayramova**




## Zəngilan rayonu regionun nəqliyyat qovşağına çevriləcək

**Zəngilan rayonu regionun nəqliyyat qovşağına çevriləcək.**

Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri Vüsal Qasımlı xarici KİV-ə müsahibəsində deyib.

Onun sözlərinə görə, Azərbaycan "Orta Dəhliz" layihəsi çərçivəsində Asiya ilə Avropa arasında marşrutların genişləndirilməsi üçün yeni imkanlar yaradıb.

V.Qasımlı qeyd edib ki, Azərbaycan "Orta Dəhliz" layihəsi üzrə tərəfdaşları ilə birgə şərq və qərb istiqamətlərində dəmiryol yükdaşımaları sahəsində əməkdaşlıq qura bilər:

"Bakı artıq Naxçıvana gedən dəmir yolunun Azərbaycan hissəsinin tikintisinə başlayıb. Beləliklə, Zəngilan rayonu regional nəqliyyat qovşağına çevriləcək. Bununla əlaqədar beynəlxalq hava limanının və avtomobil yollarının tikintisi planlaşdırılır".

O əlavə edib ki, Türkiyə və İran da regionda əlaqələrin bərpa olunmasında maraqlıdır.




## Yoluxma statistikasında azalma müşahidə olunur

### Artıq yumşalma tədbirlərinə gedə bilərik

**Dünyada son iki həftə ərzində COVID-19 virusuna yoluxmalarda və ölüm sayında azalma qeydə alınır.**

Bu barədə brifinq zamanı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus bildirib. Bununla belə, təşkilat rəhbəri bir sıra ölkələrdəki vəziyyətin hələ də narahatlıq doğurduğunu, pandemiyanın başa çatmasından söhbət getmədiyini dilə gətirib.

ÜST rəhbəri, həmçinin dərman istehsalçısı olan şirkətləri Hindistanın ixracı dayandırması səbəbindən yaranan boşluğu doldurmaq üçün əvvəllər nəzərdə tutulandan daha çox vaksin istehsal edib bazara çıxarmağa çağırıb. O, G7 ölkələrini də may ayının sonunadək 140 milyon doza vaksin tədarükünü təmin etmək üçün təcili tədbirlər görməyə çağırıb.

Eyni zamanda qonşu ölkələrdə, o cümlədən Türkiyədə də yumşalma tədbirləri həyata keçirilir. Azərbaycanda isə yoluxma statistikası tədricən azalır. Bir ildən çoxdur ki, dünyanın "altını-üstünü çevirən" koronavirus pandemiyasının gələcəkdə özünü necə aparacağı isə sual altındadır.

**Həkim-infeksionist Natiq Əliyev bu barədə proqnozlarını "Şərq"lə bölüşüb:** "Son günlər yoluxma statistikasında azalma və stabillik var. Bu, bir neçə məqamla bağlıdır. Ən başlıcası isə odur ki, qərarlar vaxtında və düzgün qəbul olunur. Vətəndaşlar məsuliyyətli davranırlar. Eyni zamanda ölkəmizdəki tendensiya qonşularımızda da müşahidə olunur. Fikrimcə, yoluxma sayında stabil azalma olarsa, yumşalma tədbirlərinə gedə bilərik. Lakin indiki məsuliyyət və həssaslığı gələcəkdə də göstərməliyik".

**Kənan**

# İyun ayından toylara icazə verilə bilər

## "Amma müəyyən normativ qaydalara əməl olunmalıdır"



**Artıq bir ildən çoxdur ki, ölkəmizdə toy və yas mərasimlərinin keçirilməsi qadağandır. Səbəb isə bütün dünyanı cənginə alan pandemiyadır.**

Yalnız toy və yas mərasimləri deyil, müxtəlif tədbirlərin də keçirilməsinə icazə verilmir. Bu baxımdan çoxlu sayda vətəndaşımızın sadə nikahla ailə qurmasının şahidi olduq. Lakin son günlər səslənən iddialara əsasən, müxtəlif şərtlər daxilində ölkəmizdə toylara icazə verilə bilər.

**Mövcud durumu "Şərq"ə dəyərləndirən Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, "kitabxana.net" portalının təsisçisi, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilovun fikrincə, toy mərasimlərinin müəyyən şərtlərlə bərpası lazımdır**: "Pandemiya il yarımdan çoxdur ki, bütün dünyada və Azərbaycanda ənənəvi yaşam tərzimizi, məişət və sosial münasibətlər məcmusunun istiqamətini dəyişib. Bu baxımdan toy və yasların, müəyyən şənliklər və tədbirlərin keçirilməsinə qadağalar var. Amma həyat davam edir. Dövlətimiz xalqın sağlamlığını nəzərə alaraq, müəyyən kütləvi tədbirləri yasaqlayıb. Amma dəfələrlə təklif olunurdu ki, vaksinasiya ediləndən və yoluxma sayı azalandan sonra toylara icazə verilə bilər. Fikrimcə, iyun ayından sonra bu, mümkündür. Lakin şadlıq evində 500-600 nəfəri yığıb toy edilməli deyil. Çünki 1 nəfərin koronavirus olması çoxlu sayda insanın yoluxmasına səbəb ola bilər. Müxtəlif vaxtlarda təkliflər səsləndirmişdik ki, açıq havada və yaxud restoranların bir neçə zalında qadın və kişi toyu, nişan və xınayaxdı ayrı-ayrı mərasimlər reallaşa bilər. Hətta yoluxma faktı olsa belə, insanların bir qismini qoruya bilərik".

*A.X.Əbilov vurğulayıb ki, toy, çox böyük biznes deməkdir:* "Burada yalnız şadlıq evləri deyil, gözəllik salonundan tutmuş, nəqliyyat, müğənni, kənd təsərrüfatı ilə məşğul olanlar, yemək və əyləncə sektoru, zərgərlik, mebel və s. sektor bir-birinə bağlıdır. Hesablamalarımıza görə, Azərbaycanda 1 milyona yaxın insan toy sektorunda birləşir və bundan xeyir götürür. Ailə baxımından götürsək, 2 milyona yaxın insanın iş yeri var. Beləliklə, Azərbaycan iqtisadiyyatına bəlkə də neft və kənd təsərrüfatından sonra 2 milyarddan çox xeyir verən məhz toy biznesidir. Ona görə də toylara icazə verilməsinin tərəfdarıyıq. Amma müəyyən normativ qaydalara əməl olunmalıdır. Açıq və çadır tipli məclis qurmaq mümkündür. Eyni zamanda toyların formatını da dəyişmək olar. Məsələn, bəzi toylar virtual formada ola bilər. Yəni ən yaxın adamlar olmaq şərtilə digərləri, hətta musiqiçilər belə virtual qoşula bilər. Həmçinin kişi və qadınların ayrı-ayrı yerdə olması variantı da mümkündür. Nikaha girdikdən sonra da vəziyyət düzəldikdə toy etmək mümkündür. Toyları təxirə salmaq olmaz. Çünki bu, demoqrafik və məişət problemi yarada bilər. Ona görə də məsələni tezliklə həll etmək lazımdır. Artıq 150 nəfər müğənni gedib Rusiya və Türkiyədə çalışmağa başlayır. Rusiyada toylara icazə var, bizdə isə yoxdur. Bu durum bir az qəribədir. Azərbaycan toyları artıq Rusiyada edilir. Qapalı mühitdə insanların yoluxmasından ehtiyat edirlərsə, bütün restoran və kafelər adamla doludur. Amma yoluxma faktı o qədər də artmır. Peyvənd olunma bitəndən sonra dövlət bu məsələyə baxa bilər. Dövlət Operativ Qərargahın simasında problemin həllini tezləşdirməlidir".

**Yeganə Bayramova**

# "Lukaşenko cəllad Serj Sarkisyana ciddi təsirlər etməyə çalışırdı"

## Zahid Oruc: "O zamanlar müxtəlif dövlətlərin demokrat rəhbərləri harada idi?"



Belarusun Müdafiə naziri, general-leytenant Viktor Xrenin Azərbaycana rəsmi səfərə edib. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.

Azərbaycanın Müdafiə naziri Zakir Həsənovun dəvəti ilə ölkəmizə gələn Viktor Xrenin Prezident İlham Əliyevin qəbulunda olub. Belarusun müdafiə nazirini salamlayan Prezident İlham Əliyev deyib:

"Əminəm ki, səfəriniz uğurlu olacaq. Hərbi sahədə əməkdaşlığımızla bağlı məsələləri həmkarınızla ətraflı müzakirə edəcəksiniz. Bizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bunu bir daha təsdiq etdi. Biz onunla çox ətraflı söhbət etdik, ikitərəfli münasibətlərin geniş gündəliyinə dair danışıqlar apardıq, o cümlədən ölkələrimiz arasında artıq qədim tarixə malik olan hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu istiqamətdə, həmçinin bütün başqa istiqamətlərdə əməkdaşlığı davam etdirmək əzmindəyik. Ona görə ki, bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir".

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) idarə heyətinin sədri, millət vəkili Zahid Oruc səfər barədə "Şərq"ə danışıb. Deputat qeyd edib ki, ölkəmiz ötən illər ərzində geniş hərbi müttəfiqlər alyansını formalaşdıra bilib:** "Bu, bir tərəfdən siyasi mənafelərimizə uyğun idi. Çünki müttəfiq dövlətlərin sayının çox olması siyasi gücümüzü artırır. İstər masada, istərsə də beynəlxalq tədbirlər zamanı Azərbaycanın haqq səsini gücləndirir. Bu gün hansısa siyasi aksiyalar zəminində şiddətli ictimai toqquşmaların yaşanmasına baxmayaraq, Sovet dövründən sonra özünəməxsus iqtisadi imkanları qoruyub saxlayan ölkə olan Belarus Azərbyacanla münasibətlərdə prinsipial davranış sərgiləyir. Ulu Öndər Heydər Əliyevin zamanında bu ölkəyə yönəlik atdığı addımlar, müxtəlif iqtisadi və humanitar xarakterli köməklər, Belarus cəmiyyətində dövlətimizə bir məhəbbət yaradıb. İctimai rəy isə öz-özlüyündə böyük bir kapitaldır, bizim üçün mühüm bir dayaqdır. Digər tərəfdən Belarus ötən illər ərzində ən mühüm strateji hücum silahlarını Azərbaycana aşağı qiymətlərlə satıb. Müxtəlif dövlətlərin təzyiqləri və təsirləri altında olan hər iki ölkə bu məsələdə iradə sərgilədi. Şübhəsiz ki, həmin raket kompleksləri İkinci Qarabağ savaşında düşmənə vurduğumuz sarsıdıcı zərbələrdə rol oynadı. Düzdür, ölkəmizin hərbi gücünün hamısını Vətən savaşına yönəltməsinə ehtiyac qalmadı. Lakin Ali Baş Komandan hələ 2020-ci ilin əvvəlində "Polonez" raketlərinin Ağstafada və Tovuz kimi ərazilərdə yerləşdirilməsini təmin etmişdi.

Təəssüf ki, informasiya vasitələrində demokratiya və diktatura yarlıqları əsasında dünya siyasətinə baxış sərgiləyən bir çox qüvvələr bəzən özlərini Belarus vətəndaşı kimi apararaq, müxtəlif siyasi şüarlarla yaşayırlar. Bu, çox yanlış situasiyadır. Çünki gözümüzün qabağında dünya siyasətinin mənzərəsi var. 2016-cı ildə yaşadığımız səhnələri də unutmamalıyıq. Çünki həmin il aprel döyüşləri zamanı və ondan əvvəlki dövrlərdə Belarus lideri Aleksandr Lukaşenko Qarabağ məsələsində prinsipial olaraq Azərbaycan tərəfindən çıxış edib. Lukaşenko həmçinin qaniçən cəllad kimi tarixdə qalan Serj Sarkisyana ciddi təsirlər etməyə çalışmışdı. O zamanlar müxtəlif dövlətlərin demokrat rəhbərləri harada idi?".

*Z.Orucun sözlərinə görə, min illərdir dünya siyasətini məhz mənafelərin idarə etdiyini görməkdəyik. Ona görə də Azərbaycan xalqı unutmalı deyil ki, həqiqətən də Belarusun bizə olan münasibət və davranışlar ən yüksək müttəfiqlik adına layiqdir:* "2016-cı il aprelin 7-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) İrəvanda tədbiri planlaşdırılmışdı. Belarus lideri məhz həmin sammitə gəlməyəcəyini bildirdi. Ardınca isə daha bir dövlət Belarusa qoşuldu. Bu, çox böyük siyasi mənaya malikdir. Çünki həmin sammitin baş tutması İrəvanda Azərbaycan tərəfindən zərbə alan və sarsılmaz mifi dağılan Sarkisyan kimi rəhbərliyin əleyhimizə bəyanat səsləndirməsi demək idi. Belarus lideri isə bunun qarşısını aldı".

**Parlament üzvü diqqətə çatdırıb ki, müdafiə nazirlərinin görüşü Azərbaycanın Vətən müharibəsində uğur qazanması, hərbi sənaye kompleksləri arasında əlaqələr və müxtəlif sahələrdə əməkdaşlığa xidmət edir:** "Ona görə də bu səfəri bir müddət öncə, iki ölkə başçısının görüşünün davamı sayırıq. Ermənistan isə Belarusla olan münasibətlərimizdən həddindən artıq narahatdır. Başa düşürlər ki, hazırda KTMT-nın katibi vaxtilə Belarusun xarici işlər naziri olub. Ona görə də Ermənistan Belarusun Azərbaycanla birgə tədbirlərinə amansız şəkildə, isterik formada və fobiya ilə cavab verir. Fərqindədirlər ki, bu görüşlərin arxasında real hərbi əlaqələr var. Azərbaycan müharibədən uğurla çıxmış silahları almaqda davam edir. Məhz görüşün də mənası budur".

**Yeganə Bayramova**





# Türkiyə şəhidlərin qisasını aldı

## PKK lideri məhv edildi

**Türkiyə Milli Müdafiə Nazirliyi PKK terrorçularının Suriya qanadının lideri, Sofi Nurettin adı altında gizlənən Halef El- Muhammedin məhv edildiyi anın görüntüləri yayımlayıb.**

Qafqazinfo xəbər verir ki, kadrlarda Halef El- Muhammedin olduğu bildirilən mağaraya "F-16" qırıcıları vasitəsilə raket zərbəsi endirildiyi görünür.

İnterpolun qırmızı bülleteni ilə axtarılan Muhammed,Türkiyə Milli Kəşfiyyat Təşkilatı və Türkiyə ordusunun ortaq əməliyyatı ilə zərərsizləşdirilib.

Terrorçunun koordinatlarının təyin edilməsindən sonra o, PUA-lar vasitəsilə 24 saat boyunca nəzarətdə saxlanılıb, həmçinin ərazinin təhlili və qiymətləndirilməsi aparılıb.

Göstərilən ərazidə mülki şəxslərin olmadığı barədə məlumatlar əldə edildikdən sonra "F-16" qırıcıları Sofi Nurettin və köməkçilərinin olduğu mağaraya raket zərbəsi endirib.

Türkiyə səlahiyyətlilərinə görə, Sofi Nurettin bu il fevral ayında İraqın şimalındakı Qara bölgəsindəki "Pençe Kartal-2" əməliyyatı zamanı Türkiyə ordusuna müqavimət göstərməyə çalışan terrorçulara rəhbərlik edib. 13 Türkiyə vətəndaşının edam edilməsini əmr edən şəxsin məhz o olduğu bildirilir.



# Azərbaycan və Belarus arasında hərbi əməkdaşlığa dair plan imzalanıb

**Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında 2021-ci il üçün ikitərəfli əməkdaşlıq planı imzalanıb. Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.**

Qeyd olunub ki, mayın 18-də müdafiə naziri general-polkovnik Zakir Həsənovla Azərbaycanda rəsmi səfərdə olan Belarusun müdafiə naziri general-leytenant Viktor Xreninin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə fəaliyyət, təcrübə mübadiləsi məqsədilə mütəxəssislərdən ibarət qrupların səfərlərinin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. Sonda Z.Həsənov və V.Xreninin əməkdaşlıq sənədi imzalayıblar.

# Ermənistan vaxt udmaq istəyir

## "Azərbaycan Zəngəzurun 100 il əvvəl Ermənistana verilməsini gündəmə gətirməlidir"



**Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələ son günlər geniş müzakirə olunur. Əslində bu, noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın tələblərindən biridir. Lakin həmin vaxtdan bu yana rəsmi İrəvan özünü alzeymer xəstələri kimi aparır. Yəni guya ki, yaddaşını itirib, dediklərini unudub. Ermənistanı tanımasaq, buna, bəlkə də, inanardıq...**

Əsas məsələ isə ondan ibarətdir ki, Ermənistan istəsə də, istəməsə də Azərbaycanın qətiyyəti göz qabağındadır. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Zəngəzur dəhlizi açılacaq; ya könülü, ya da zorla...

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Zəngəzur dəhlizinin taleyi barədə fikirlərini "Şərq"lə bölüşüb.** O düşünür ki, proseslərin uzadılması təsadüfi deyil: "Bu, Ermənistandakı daxili siyasi vəziyyətlə əlaqədardır. Hazırda düşmən ölkədə seçkilər ərəfəsidir, üstəgəl, siyasi elitada da ciddi mübarizə gedir. Ermənistanın texniki məsələni siyasiləşdirməsi, süni siyasi böhran yaradılması məhz bununla bağlıdır. İndiki məqamda Azərbaycan düşmənin səsləndirdiyi müxtəlif bəyanatlara qarşı hücum taktikasını seçməli, Zəngəzurun 100 il əvvəl Ermənistana verilməsini gündəmə gətirməlidir. Biz prosesləri maraqlarımıza uyğun həll etməyə qadirik".

*T.Zülfüqarov, həmçinin deyib ki, Ermənistan "iki daş arasında qalıb":* "Bundan sonra əsas sual Ermənistan iqtidarının əvvəlki ruspərəst, yoxsa qərbmeyilli siyasət yeridəcəyidir. Baş nazir Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinə zəng etməklə onu sınamaq istəyir. Lakin özü də bilir ki, Kreml arzuolunan dəstəyi verməyəcək. Əks halda Azərbaycanla, Türkiyə ilə əməkdaşlıq təhdid altına düşəcək. Qərb indiki məqamda Ermənistana siyasi dəstək vermək istəyir. Bunun müxtəlif elementləri artıq görünür".

**Kənan**

# Muradov da gərgin vəziyyəti anlayıb

## "Sülhməramlıların fəaliyyəti bir ildən artıq özünü doğrultmayacaq"



Azərbaycanın Qarabağ bölgəsindəki Rusiya sülhməramlı kontingentinin komandiri, general-leytenant Rüstəm Muradov vəzifəsindən kənarlaşdırılıb. O, Cənubi Hərbi Dairə komandirinin müavini general-leytenant Aleksey Avdeevlə əvəzlənib. Təyinatla bağlı müxtəlif iddialar var.

Qanuna görə, kontingent komandirləri hər altı aydan bir rotasiya əsasında dəyişdirilir. Lakin heç bir tərəfin etirazı olmursa, səlahiyyət müddəti uzadıla bilər. Ola bilsin, hansısa "əmma" çıxıb

**Hərbi-siyasi ekspert Həşim Səhrablı təyinata səbəb olacaq ehtimallarla bağlı fikirlərini "Şərq"lə bölüşüb:** "Bunun Muradovun fəaliyyətsizliyi və ya gördüyü işin Moskvada bəyənilməməsi ilə əlaqəsi yoxdur. Hər halda o, Rusiyanın ordu genaralitetində bəyənilən, seçilən tək-tük adamlardandır. Qarabağa sülhməramlıların komandanı kimi məhz onun təyin edilməsi də təsadüfi deyildi. Sadəcə qanuna görə belə hallarda 6 aydan sonra mübahisəli tərəflər arasında narazılıq çox olanda komandan dəyişilə bilər. Bildiyimiz kimi, 10 noyabr razılığından sonra silahlı insident olmamasına rəğmən etirazlar səngimir. Ola bilsin, Muradov özü də başa düşüb ki, sabitlik yaratmaq mümkün deyil. Əslində bəzi ekspertlər analoji fikirlər səsləndirmişdilər: sülhməramlıların fəaliyyəti bir ildən artıq özünü doğrultmayacaq".

**H.Səhrablının sözlərinə görə, yeni təyinat Qarabağdakı durumu dəyişməyəcək:** "Çünki tərəflər Muradova görə mübahisə eləmirlər. Yəni səbəb həmin general deyil. Bundan sonra hətta Rusiya Müdafiə naziri Sergey Şoyqu eyni vəzifəyə təyin edilsə belə, müsbət nəticə əldə edilməyəcək. Sabitliyin yaranmasından ötrü komandan dəyişilməli deyil, ədalətli həll yolu tapılmalıdır".

**Kənan**

## Problemlər danışıqlar vasitəsilə həll edilməlidir

### Rusiya XİN: "Azərbaycan-Ermənistan sərhədində vəziyyəti yaxından izləyirik"



**"Azərbaycan və Ermənistan arasında sərhəd insidenti ilə bağlı vəziyyəti yaxından izləməyə davam edirik".**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və Mətbuat Departamentinin şərhində bildirilib.

Vurğulanıb ki, Rusiya tərəfi gərginliyin azaldılması üçün Bakı və İrəvana ən yüksək səviyyədə müntəzəm təmaslar saxlayaraq yardım göstərir.

"Əlaqələr bizim ölkələrimizin hərbi və sərhəd xidmətləri vasitəsilə saxlanılır. Atəşkəs rejiminə ciddi riayət olunmasının, eləcə də Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlarının digər müddəalarının ciddi şəkildə yerinə yetirilməsinin vacibliyini bir daha təsdiqləyirik. Bundan irəli gələrək belə hallar sülh yolu ilə, danışıqlar vasitəsilə həll edilməlidir. Uzunmüddətli həll qismində Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və daha sonra demarkasiyası prosesinin başlamasında görürük. Rusiya Federasiyası Cənubi Qafqazda vəziyyətin ardıcıl şəkildə normallaşmasına təşviqi davam etdirməyə hazırdır", - deyə Rusiya XİN-in şərhində qeyd olunub.

# "Ermənilər torpaqlarımıza sonradan gəliblər"

## Rafik Danakari: "Qarabağdakı kilsələr təkcə biz udilərin deyil, qədim alban xalqınındır"

Xəbər verdiyimiz kimi mayın 15-də Prezident İlham Əliyev və Birinci-vitse prezident Mehriban xanım Əliyeva Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana və Müqəddəs Yelisey adına Cotari alban kilsələrində olublar. Dövlət başçısına və birinci xanıma məbədlərdə görülən işlər barədə ətraflı məlumat verilib. Prezident və ailəsi kilsədə şam yandırıblar. Dövlət başçısı Azərbaycan ərazisində xristianlığın yayılması ilə bağlı mühüm fikirlər səsləndirib və zəruri tapşırıqlar verib.

Alban-udi kilsəsinin və udilərin hər zaman dövlət tərəfindən diqqətdə saxlanıldığını vurğulayıb. Ölkə rəhbərinin bu yanaşması Azərbaycanda multikulturalizmin yüksək səviyyədə olduğundan və bütün dinlərə hörmətlə yanaşıldığından xəbər verir. Xatırladaq ki, ölkəmizdə tarixən mövcud olmuş multikultural dəyərlər sisteminin - xristian, islam və iudaizm kimi üç səmavi dinin, bu dinlərə etiqad edən etnosların dini icmalarının, kilsə, sinaqoq və məscidlərin mövcud olduğu regionlarımızdan biri də Qəbələ rayonudur. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır. Qəsəbə tolerantlığın kiçik modeli sayılır. Alban kilsəsinin dini varisləri olan udilər də Prezidentin ziyarətindən və onlara göstərilən qayğıdan böyük məmnunluq ifadə ediblər.

**Nic qəsəbəsində kilsə ziyarəti zamanı dövlət başçısını və ailə üzvlərini müşayiət edən Alban-udi xristian icmasının sədr müavini Rafik Danakari "Şərq"ə müsahibəsində ölkə rəhbəri ilə görüşdən və mühüm ziyarətdən danışıb, xoş təəssüratlarını paylaşıb.** Xristian icmasının nümayəndəsi vurğulayıb ki, bütün udilər cənab Prezidentin və Birinci-vitse prezidentin səfərindən böyük sevinc və qürur hissi duyublar...

**- Rafik müəllim, cənab Prezidentin və ailə üzvlərinin Nic qəsəbəsinə səfərini, xüsusən kilsələrin ziyarətini necə dəyərləndirirsiniz?**



"Hamısını yenidən bərpa etməli və bütün dünyaya göstərməliyik ki, Azərbaycan xalqı tolerantdır, multikulturaldır"

- Hamımız bu gözəl ziyarətin həsrətindəydik və səbirsizliklə gözləyirdik. Müdrik Prezidentimiz çıxışlarında dəfələrlə Nic qəsəbəsindən söz açmış, növbəti dəfə kəndə səfər edəcəyini demişdi. Nəhayət, dövlət başçısını qəsəbədə qonaq etmək şərəfinə nail olduq. Bu, bizim üçün çox sevindirici hadisə idi. Ələlxüsus, ölkə rəhbərinin qəsəbəmizi və kilsəmizi hörmətli Mehriban xanımla, ailə üzvləri ilə bərabər ziyarəti bizi daha da qürurlandırdı. Prezident həmişə bizimlə olduğunu vurğulayır, bizi fərəhləndirir. Bu tarixi səfər də udi xalqının yaddaşına həkk olundu.

**- Nic qəsəbəsində neçə alban kilsəsi var? Hamısı bərpa olunubmu, yoxsa təmirə ehtiyacı olan məbədlər durur?**

- Nicdə 3 kilsəmiz var. İkinci kilsə yaxın zamanda bərpa olundu. Birinci kilsəmiz isə Tur Heyerdal Azərbaycana səfər edərkən, 2006-cı ildə Mədəniyyət Nazirliyi və Norveç humanitar təşkilatı tərəfindən təmir edilib, mayın 19-da bizə təhvil verilib. Xoş təsadüfə baxın ki, indiki ziyarət də may ayına düşdü. Üçüncü kilsəmiz isə aşağı məhlədədir, camaat arasında "göy kilsə" deyilən məbəddir. Bu kilsənin bərpaya ehtiyacı var. Artıq layihə mövcuddur. Heydər Əliyev Fondu tərəfindən yaxın aylarda təmir olunacaq.

**- Görüş zamanı ermənilərin qədim məbədlərimizin başına açdığı oyunlardan bəhs edildi. Ermənilər Nicdəki alban kilsələrini də saxtalaşdırıbmı?**

- 1836-cı ildə Çar Rusiyası Azərbaycan xalqına məxsus alban kilsələrini ermənilərin Qriqoryan kilsəsinə verdi. 1850-ci ildən sonra Nic kəndinə erməni keşişlər gəldilər və qədim məbədlərimizi erməniləşdirmək üçün çalışdılar. Şükürlər olsun ki, ciddi mənada buna nail ola bilmədilər. Sadəcə xaç əlavə etdilər və kilsəmizdə müqəddəs yer hesab olunan yüksəkliyi - altarları bir qədər yuxarı qaldırdılar. Ermənilər çar Rusiyası zamanı Qarabağ bölgəsindəki alban kilsələrini də saxtalaşdırmaq istəyiblər, lakin bölgənin xristian və müsəlman camaatı buna imkan verməyib. 1992-ci ildə Qarabağ işğal edilməyə başlanandan sonra erməni vəhşiləri sərbəst şəkildə alban kilsələrinin tarixi görünüşünü dəyişiblər. Kilsələrə məxsus qədim daşları sökərək, Ermənistandan gətirdikləri saxta daşları divarlara hörüblər. Erməni xaçını sonradan kilsələrə yapışdırıblar. Nə qədər gizlətməyə çalışsalar da, ermənilərin yamağı o saat gözə çarpır. Bunu ört-basdır etmək mümkünsüzdür. İndi bütün məbədlər əslinə geri döndəriləcək.

**- Köç prosesi başladıqdan və bərpadan sonra Qarabağdakı alban kilsələrini də ziyarət etməyi düşünürsüzmü?**

- Əlbəttə, mütləq. Cənab Prezident özü də vurğuladı ki, Qarabağı yenidən dirçəldəcəyik və ora gediş-gəlişimiz bərpa olunacaq. İşğaldan azad edilmiş ərazilərdə mövcud olan bütün alban kilsələri və digər qədim abidələr bərpa olunmalıdır. Çünki bu, bizim tariximizdir, mədəni mirasımızdır, vazkeçilməz irsimizdir. Qarabağdakı kilsələr təkcə biz udilərin deyil, qədim alban xalqınındır. Hamısını yenidən bərpa etməli və bütün dünyaya göstərməliyik ki, Azərbaycan xalqı tolerantdır, multikulturaldır. Tariximiz də, mədəniyyətimiz də çox qədimdir. Ermənilər isə sonradan torpaqlarımıza gəlib. Nə qədər varıq, ermənilər bizə məxsus heç nəyi ala bilməyəcəklər.

**- Qədim alban əlifbası ilə bağlı dialoq da maraq oyatdı. Dövlət başçısı əlifbaya böyük önəm verdi və təbliğ olunmasının vacibliyinə diqqət çəkdi. Bu məsələ udilər üçün nə qədər mühümdür?**

- Qədim Alban dövlətində 52 hərfdən ibarət yazı istifadə olunub. Dini kitablar və başqa ədəbiyyatların hamısı həmin alban qrafikası ilə udi dilində yazılıb. Müasir dövrdə isə latın qrafikası ilə udi dilində kitablar nəşr etməyə başlamışıq. Ölkə rəhbəri çox haqlı olaraq vurğuladı ki, udilər qədim alban əlifbasını da bilməli, bu mirası unutmamalıdır. Təbliğ olunmalıdır ki, uşaqlar da məlumatlı olsunlar və irsimizi gələcək nəslə çatdırmaq mümkün olsun. Düzdür, 52 hərfdən ibarət qədim qrafikanı mütəxəssislər olmadan oxuyub-başa düşmək çox çətindir. Prezidentimiz sağ olsun, tapşırıq verdi ki, alimlər bunun üzərində işləsinlər və qədim alban əlifbasını öyrənsinlər. Sonra da alban əlifbası ilə udi dilində yeni kitablar nəşr olunsun. Hətta məktəblərdə tədris edilsin. Əlbəttə, dövlət dilimiz Azərbaycan dilidir və hamımız bu dili gözəl bilirik. Amma udilər öz aralarında qədim dillərini və əlifbalarını da istifadə etməlidir.

**- İcma nümayəndəsi olaraq dövlətin diqqət və qayğısından razısınızmı?**

- Çox razıyıq. Dövlətimiz və rəhbərliyimiz tərəfindən udilərə olan qayğı hər zaman çox böyük olub. Hərtərəfli diqqət və qayğı görmüşük. Heç bir problemimiz olmayıb. Kiçik çatışmazlıqlar isə ən qısa zamanda aradan qaldırılıb. Dövlət başçısı İlham Əliyev dedi ki, "mən həmişə sizinləyəm". Cənab Prezident Ağdam məscidinin önündə, bütün dünyanın gözü qarşısında söylədi ki, "işğaldan azad olunmuş ərazilərimizdəki bütün alban kilsələri, məbədlər bərpa olunacaq və onların sahibləri udi qardaşlarımızdır". Bizə bundan artıq nə qiymət verilə bilər? Cənab Prezidentimizin "udi qardaşlarım" deyə xitab etməsi bizi çox fərəhləndirir. Hər zaman Azərbaycan dövlətinin və cənab Prezidentin yanındayıq.

**İsmayıl Qocayev**

# Dünyada qlobal dəyişikliklər baş verir

## “Zəngəzur dəhlizi Çindən İngiltərəyə uzanan geosiyasi planın tərkib hissəsidir”



**”Gürcüstan Azərbaycanın indiyədək qərb qapısı olaraq istifadə olunub. Ancaq ermənilər hər zaman Gürcüstan-Azərbaycan münasibətlərini pozmağa çalışıblar”.**

**Bu sözləri ”Şərq TV”yə açıqlamasında siyasi-şərhçi Asif Nərimanlı deyib.** O qeyd edib ki, son proseslər fonunda da Zəngəzur dəhlizi gündəmə gəlib: ”Gürcüstanda bəzi qüvvələr hesab edir ki, Zəngəzur dəhlizi Gürcüstan üzərindən keçən marşrutların aktuallığını azalda bilər. Halbuki, elə deyil. İlk növbədə qeyd edim ki, Zəngəzur dəhlizi Azərbaycanın Naxçıvana və Türkiyəyə quru əlaqəsinin yaradılmasında mühüm rol oynayır. Zəngəzur dəhlizinin açılması Türkiyədən Mərkəzi Asiyaya uzanan coğrafiyanı birləşdirəcək ki, bu da parçalanmış türk coğrafiyasının bütövləşməsi deməkdir. Lakin Zəngəzur dəhlizi həm də qlobal dəyişikliyin fonunda Çindən İngiltərəyə uzanan geosiyasi planın - ”Bir kəmər, bir yol layihəsi”nin də tərkib hissəsidir. Təbii ki, belə bir dəhlizin gündəmə gətirilməsinin səbəblərindən biri də məhz Gürcüstan marşrutunda yarana biləcək problemlərə qarşı alternativ marşrutun yaradılmasıdır. Çünki biz bilirik ki, Gürcüstan daha çox Amerikaya yaxın olan və daha çox onun təsirində olan ölkədir. Məlum olduğu kimi, Amerika Çinin ”Bir kəmər, bir yol” layihəsinə qarşı çıxır. Bu kontekstdə gələcək üçün layihə işə düşürsə, gələcəkdə Zəngəzur dəhlizi məhz yaranacaq problemlərə qarşı alternativ marşrut olacaq. Qeyd edim ki, Gürcüstan-Azərbaycan üzərində yeni proseslərdə Fransanın da müəyyən bir addımları müşahidə edilir, xüsusən də Cavaxetiya üzərindən. Çünki Cavaxetiya Azərbaycanın enerji layihələrinin keçdiyi yola yaxındır. Zaman-zaman bilirik ki, hətta Rusiyanın da müəyyən cəhdləri olub”.

A.Nərimanlı qeyd edib ki, Zəngəzur dəhlizi Rusiyanın, İranın, ABŞ-ın və Fransanın timsalında Avropanın marağında deyil və hər bir oyunçu müxtəlif gedişlər edir.

**Aynurə Pənahqızı**

## Qarabağa gediş-gəliş asanlaşacaq

### “Azad edilmiş ərazilərimizdə işğaldan əvvəl mövcud olmuş dəmir yollarının bərpası gözlənilir”



**“Daha bir dəmir yolu xəttinin tikintisinə start verilir. Artıq Horadiz-Ağbənd istiqamətində infrastruktur işlərinə başlanılıb. Bütövlükdə, azad edilmiş ərazilərimizdə işğaldan əvvəl mövcud olmuş dəmir yollarının bərpası gözlənilir”.**

Bunu ”Şərq”ə açıqlamasında iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, ümumi uzunluğu 100 kilometr olan dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq.

**V.Bayramov vurğulayıb ki, bu dəmir yolu xətti işğaldan azad olunan ərazilərimizə gediş-gəlişi daha da asanlaşdıracaq:** ”Vətəndaşlarımız alternativ nəqliyyat imkanından istifadə edə biləcəklər. Digər tərəfdən, dəmir yolu nəqliyyatının inkişaf etdirilməsi kontekstində dəhlizin istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək”.

**Aynurə**

# “Azərbaycan bütün imkanlarını dəhlizinin reallaşmasına səfərbər edib”



### “Baş verənlər fonunda orduya “həyəcan siqnalı” verilməklə təlimlər keçirilməsi də xəbərdaredici mesaj daşıyır”

*"Rusiya hazırkı geosiyasi mənzərədə əqrəblərini həm Bakı, həm də İrəvanla tutuşdurmağa üstünlük verir". Bu barədə siyasi şərhçi, araşdırmaçı-jurnalist Aqşin Kərimov deyib. Analitik vurğulayıb ki, bundan əvvəl Gümrüdəki 102-ci bazadan olan kontingentin Sünikdə (Zəngəzur) yerləşdirilməsinə dair məlumatlar açıqlanmışdı.*

Onun fikrincə, Rusiya bu gedişlə Ermənistana dəstək görüntüsü yaratmağa, sərhədlərinin mühafizəsini gücləndirmək missiyası kimi mövqe sərgiləyən fon yaratmağa çalışır: ”Təbii ki, Rusiya bu prosesin Azərbaycanda narahatlıqla izləndiyini bilir və maraqlarını Bakının mövqeyi ilə uyğunlaşdırmaq üçün danışıqlar aparır. Birincisi ona görə ki, Zəngəzur dəhlizinin açılması Rusiyanın da marağındadır, bu, Moskva üçün əlavə iqtisadi imkanlar vəd edir. Zəngəzur dəhlizinin reallaşması üçün isə sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı Azərbaycanın istədikləri mütləq nəzərə alınmalıdır. İkincisi, Prezident İlham Əliyevin ”Ermənistan istəsə də, istəməsə də, Zəngəzur dəhlizini icra edəcəyik” kimi ultimativ bəyanatından sonra Nikol Paşinyan müti şəkildə elan etdi ki, İrəvan bəyanatın bütün bəndlərini yerinə yetirməyə hazırdır”.

A.Kərimov qeyd edib ki, Rusiya həm də Ermənistandakı hərbi qüdrətini artırır, bununla da İrəvana diktə etmək imkanlarını genişləndirir: ”Eyni zamanda Azərbaycanın da maraqlarını təmin etməyə çalışır. Bəs kim nə qazanır? Aydındır ki, müharibədən sonra Paşinyanın Qərb təmayüllü ritorikasını Rusiyaya simpatiya əvəzləyib. Rusiya Paşinyana başa salır ki, ”hakimiyyətdə qalmaq istəyirsənsə, mənim əlimə oynamalısan”. Əks halda isə Robert Koçaryan kimi ehtiyat kadrı var və onu dövriyyəyə salır. Rusiya onu da başa düşür ki, Koçaryanın seçkilərdə qələbə qazanmaq şansı aşağıdır. İndi şübhə qalmır ki, Rusiya özü də Paşinyana hakimiyyətdə qalması üçün vədlər verir, həm də Zəngəzur dəhlizi üçün diktələrini yeridir. Rusiyanın diplomatik fantaziyaları sərhəd tanımır. Kreml həm Ermənistanı daha da asılı vəziyyətə salır, Paşinyanı nəyəsə inandırır, həm Koçaryanı dövriyyəyə salır, həm də maraqlarını Bakı ilə uzlaşdırır”.

**Siyasi şərhçiyə görə, Paşinyan sərhədlərin müəyyənləşməsi üçün Bakının və Rusiyanın diktəsi altında hərəkət edir:** ”Bununla belə Paşinyanın nəzəri də olsa öz oyun qaydaları var. Lakin təşəbbüsləri elə ”bələkdəcə boğulur”. Çıxılmaz vəziyyətdə qalan Paşinyan üçün daxili auditoriyanı sakitləşdirmək lazımdır. O səbəbdən İrəvan üzdə problemin həlli üçün guya bütün resurslarını işə saldığına dair görüntü yaratmaq məcburiyyətindir. Elə KTMT-yə müraciət də bu qəbildəndir. Paşinyan bununla həm görüntü yaradır, həm də nüfuzunun qalxması üçün hərbi təşkilatdan ümidlərinin reallaşmasını sınamaq niyyətlərini ortaya qoyur. Ancaq Azərbaycan bütün ölçüləri götürüb və diplomatik kanallar Bakı üçün ən əlverişli mənbələrə çevrilib. Rəsmi Bakı Ermənistanın oyun qaydalarını pozmaq cəhdlərindən vaxtında məlumat alır və dəyirmanın çarxına çomaq soxmaqla İrəvanın hərəkətinə mane olur. Azərbaycan bütün imkanlarını Zəngəzur dəhlizinin reallaşmasına səfərbər edib. Baş verənlər fonunda orduya ”həyəcan siqnalı” verilməklə təlimlər keçirilməsi də xəbərdaredici mesaj daşıyır. Rusiyanın öz maraqları olsa da, Azərbaycanla konfrontasiyaya getmək niyyətində deyil”.

**İsmayıl Qocayev**



# Koronavirus ömürü həqiqətən qısaldır

### Xüsusi ilə gənclər bu bəlanın qurbanlarıdır

**Corc Mason Universitetinin professoru Ança Baranova müsahibəsində bildirib ki, inkişaf etmiş ölkələrdə orta ömür uzunluğu koronavirus pandemiyası səbəbiylə bir yarım və iki ilə qədər azalıb.**

Bioloq vurğulayıb ki, koronavirus xəstəliyinin hər epizodu az da olsa, həyatımızı qısaldır. Bəzi hallarda isə əhəmiyyətli dərəcədə azaldır. Baranova bu qənaətləri ABŞ statistikasına əsaslanaraq verib. Mütəxəssis yekunda COVİD-19-un birdən çox dəfə yoluxa bilən sistemik bir xəstəlik olduğunu xatırladıb.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən tibb elmləri doktoru, professor Adil Qeybulla deyib ki, ”COVİD-19” orta ömür göstəricisinə ciddi təsir göstərib.** Professor qeyd edib ki, xüsusilə koronavirus səbəbindən gənc yaşda insanların həyatını itirməsi bütün ölkələrdə ölüm yaşına təsir edib: ”Bütün dünya üzrə ”COVİD-19” infeksiyasının insan orqanizminə təsirinin nəticələri, post korona sindromu və onun sonrakı nəticələri ilə bağlı araşdırmalar davam edir. Bununla bağlı birmənalı bir şey demək çətindir. Amma təbii ki, koronadan ölənlər və xüsusilə, burada gənc yaşda adamların da olması bütün ölkələrdə ölüm yaşına və sayına təsir edib. Ona görə də ölkələr üzrə bu xəstəliyə görə ümumi ölüm yaşı və ölüm faizi üzrə göstəricilər dəyişir. Amma ”COVİD-19” keçirmiş və post COVİD sindromu olan xəstələrin sonrakı dövrlərdə hansı fəsadlarla, hansı xəstəliklərlə üz-üzə gəlməsi və bundan baş verən ölüm halları artıq sonrakı araşdırmalardır. Hesab edirəm ki, həqiqətən də koronavirus pandemiyası orta ömür göstəricilərinə ciddi təsir edib”.

**Aynurə Pənahqızı**

# Dmanisidə barışıq çox kövrəkdir

## Gürcüstan hakimiyyəti problemi kökündən həll etmədi



*“Kim qarantiya verir ki, 3-5 gün sonra svanlar yenidən bizə hücum çəkməyəcək?! Gürcüstanda yaşayan azərbaycanlıların hamısını bu sual düşündürür”*

Ötən gün Gürcüstanın Dmanisi (Başkeçid) şəhərində bir qrup svanın azərbaycanlılara hücum etməsi ilə başlayan qarşıdurma səngiyib. İki günlük gərginlikdən sonra tərəflər arasında barışıq olduğu deyilir. Svanlar Dmanisi meriyasında azərbaycanlıların əlini sıxıblar.

Gürcüstanın Daxili işlər naziri Vaxtanq Qomelauri baş vermiş insidentlə bağlı istintaqın davam etdiyini, qarşıdurma ilə bağlı heç kimin həbs olunmadığını söyləyib. Nazir bildirib ki, qarşıdurmada iştirak edən bir neçə şəxs polis bölməsində dindiriləndən sonra sərbəst buraxılıblar. Qomelauri əlavə polis qüvvələrinin bir müddət Dmanisidə qalacaqlarını da bildirib.

**Hər iki ölkədə ciddi narahatlığa və müzakirələrə səbəb olan hadisəni ”Şərq”ə dəyərləndirən Gürcüstanda yaşayan soydaşımız, “Qeyrət” Xalq Hərəkatının sədri Əlibala Əsgərov istintaqdan narazı qaldıqlarını deyib.** Onun sözlərinə görə, azərbaycanlıların döyülməsinə, təhqirə məruz qalmasına baxmayaraq, qarşı tərəfdən heç kim cəzalandırılmayıb: ”Olayın niyə, hansı səbəbdən baş verdiyi araşdırılmadan, problemin kökünə getmədən ”barışıq” elan edildi. Əfsuslar olsun ki, bəzi nümayəndələrimizi də bu ”barışığa” cəlb etdilər. Kim qarantiya verir ki, 3-5 gün sonra svanlar yenidən bizə hücum çəkməyəcək?! Gürcüstanda yaşayan azərbaycanlıların hamısını bu sual düşündürür. Svanlar 1980-ci illərin əvvəlində bölgəyə köçürülüb. 30 ildən artıq zaman keçsə də, bölgə camaatının psixologiyasını, adət-ənənəsini qəbul edə bilməyiblər. Belə hadisələr dəfələrlə təkrarlanıb. Svanlar bizim mağazalara girərək mal alıb, restoranlarda yemək yeyib, amma pulunu ödəməkdən boyun qaçırıblar, ictimai qaydaları pozublar. Amma hüquq-mühafizə orqanları ələ keçirdiyi üç-beş svanı bölməyə aparır, bir-iki saatdan sonra sərbəst buraxır”.



**Ə.Əsgərov vurğulayıb ki, bəzilərinin iddia etdiyi kimi bunlar heç də sadə məişət məsələləri deyil:** ”Svanlar uzun müddətdir azərbaycanlıların başına oyun açırlar və bunun qarşısı alınmır. Hər şeyə rəğmən, biz yenə də humanistlik edir, qarşıdurma yaranmasını istəmirdik. Amma ötən gün baş verən hadisələr bardağı daşıran son damcı oldu. Bizi narahat edən əsas məqam odur ki, hadisədə konkret zərər çəkənlər olmasına baxmayaraq, ortada suçlu, cəzalandırılmış şəxs yoxdur. Qarşıdurmanı alovlandıran, əli daşlı-sopalı qrupları azərbaycanlıların üzərinə salanlar kimlərdir? Bu suallara cavab axtarırıq? Belə çıxır ki, Gürcüstan hakimiyyəti Dmanisi bölgəsində çox zəif idarəçiliyə malikdir. Əsrlərdir gürcülərlə birlikdə yaşayırıq. Heç vaxt arzulamamışıq ki, aramızda qarşıdurma, düşmənçilik olsun. Amma məsələ gərgin olaraq qalmaqdadır. Barışıq çox kövrəkdir. Dövlət bu problemi kökündən həll etməlidir”.

**İsmayıl Qocayev**

## Daha 432 nəfər koronavirusa yoluxub

### 10 nəfər vəfat edib, 1024 nəfər müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 18.05.2021 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 330701 | Yeni yoluxanların sayı | 432 |
| Ümumi sağalanların sayı | 316439 | Yeni sağalanların sayı | 1024 |
| Aktiv xəstə sayı | 9460 | Bugünkü test sayı | 11116 |
| Ümumi test sayı | 3404046 | Bugünkü ölüm sayı | 10 |
| Ümumi ölüm sayı | 4802 | | |

KoronaVirus info

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 432 yeni yoluxma faktı qeydə alınıb, 1024 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 10 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 330 701 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 316 439 nəfər müalicə olunaraq sağalıb, 4 802 nəfər vəfat edib. 9 460 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 116, bu günə qədər isə ümumilikdə 3 404 046 test icra olunub.*

## Bakıda "KİA"nın vurduğu piyadanın üzərindən digər avtomobil keçib

**Bakının Xətai rayonunda ağır yol-nəqliyyatı hadisəsi zamanı 1 nəfər ölüb.**

APA xəbər verir ki, Ramiz Quliyev küçəsi 10 ünvanında, təxminən 35-40 yaş aralığında naməlum kişi yolun piyadalar üçün müəyyən edilməmiş hissəsindən keçərkən onu ”KİA” markalı nəqliyyat vasitəsi vurub. Zərbənin gücündən piyada yolun digər tərəfinə düşüb. Bu zaman onun üzərindən ”Mercedes” markalı avtomobil keçib. Baş verən qəza nəticəsində piyada hadisə yerində ölüb.

Əraziyə Xətai Rayon Polis İdarəsinin əməkdaşları cəlb edilib. Şahidlər dindirilib. Hər iki sürücü isə polis idarəsinə aparılıb. Hazırda qəzanın baş vermə səbəbləri araşdırılır.

## Texniki Universitetin itkin düşən tələbəsi 8 gün sonra tapılıb



**Azərbaycan Texniki Universitetinin (AzTU) Energetika və avtomatika fakültəsinin itkin düşmüş 3-cü kurs tələbəsi tapılıb.**

Bu barədə APA-ya Şabran Rayon Polis Şöbəsinin Əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Cəmil Nəsirov məlumat verib. C. Nəsirov bildirib ki, 8 gün əvvəl itkin düşən rayon sakini Hüseynov İlkin Saleh oğlu dünən Bakı şəhəri ərazisində tapılaraq ailəsinə təhvil verilib.

Məlumata görə, İlkin sonuncu dəfə mayın 11-də saat 14.40-da Bakıdan yaşadığı Şabrana gedərkən nənəsi ilə danışıb, Siyəzən rayonu ərazisində yerləşən Xızır Zində pirinin yaxınlığında olduğunu bildirib və 20 dəqiqəyə evə çatacağını deyib. Bundan sonra ondan xəbər olmayıb.

## Meşələrin elektron mühafizə sistemi yaradılacaq

**“Qısa müddətdə meşələrin elektron mühafizə sistemi yaradılacaq”.**

Bunu ”Ekspert saatı”nda ETSN-in Meşələrin İnkişafı Xidmətinin rəis müavini Mehman Səfərov deyib. O bildirib ki, meşələrdə müşahidə kameralarının quraşdırılmasına əvvəlki illərdə başlanıb: ”Bu prosesi daha innovativ sistemə keçirməyi planlaşdırırıq. Yəqin ki, qısa müddətdə meşələrin elektron idarə olunması üçün əməli tədbirlər görüləcək”.



# Daha radikal addımlar atılmalıdır

## Gündəlik qiymət artımının səbəbkarı da Gömrük İdarəsidir

**Bakı Baş Gömrük İdarəsində əməliyyat keçirilib. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində idarənin bir neçə əməkdaşı saxlanılıb. Əməliyyat zamanı idarənin yüksək vəzifəli şəxslərinin rüşvət alarkən tutulduğu qeyd edilir.**

Əslində bu, gözlənilən idi. Çünki xeyli vaxtdır ki, sözügedən qurumla bağlı tənqidlər səngimirdi. Ekspertlər Gömrük İdarəsinin yarıtmaz fəaliyyətindən ağızdolusu danışırdılar. Keçirilən əməliyyat tənqidlərin haqsız olmadığını göstərdi.

**İqtisadçı-alim Nazim Bəydəmirli bu barədə fikirlərini ”Şərq”lə bölüşüb. Onun sözlərinə görə, belə addımlar ciddi nəticə üçün kifayət deyil:** ”Gömrük İdarəsinin fəaliyyətindəki korrupsiya, rüşvətxorluq və monopoliya hər kəsə məlumdur. Bir müddət əvvəl MDB Statistika Komitəsi ən çox qiymət artımının məhz Azərbaycanda olduğunu bildirmişdi. Ümumiyyətlə, gündəlik qiymət artımı ölkəmizdə adi hala çevrilib. Hətta başqa ölkələrdə ucuzlaşma müşahidə edilərkən belə, bizdə bahalaşma olur. Bu isə vətəndaşların rifahını pisləşdirir və narazılığa səbəb olur. Deməli, Gömrük İdarəsi məqsədinə çata bilməyib və daxili istehsalı qoruya bilməyib”.

N.Bəydəmirli, həmçinin bildirib ki, daha radikal addımlar atmaq lazımdır:



”Gömrük İdarəsinin açıqlamasında saxlanılan şəxsə dəfələrlə xəbərdarlıq edildiyi göstərilir. Əslində bu bəyanat özü də təsdiqləyir ki, kadr dəyişikliyi sadəcə daxili hesablaşmalarla bağlıdır və ”gözə kül üfürməkdir”. Məqsəd verən korrupsiyaya qarşı mübarizə yox, ”ip-sapa yatmayanları” uzaqlaşdırmaqdır. İndiki halda labüd addım isə Gömrük İdarəsinin ləğv edilməsi və Vergilər Nazirliyinə birləşdirilməsidir”.

**Kənan**

*"Gecələr yatmıram. Gözümə yuxu getmir. Özümə deyirəm ki, maşında yataram. Amma maşında da gözümü yuma bilmirəm. Sanki Şuşa yolunu bir də, bir də, təkrar-təkrar gözlərimə köçürmək istəyirəm. Deyirəm, bəlkə bir də görmədim, doyunca baxım. Ağlamaq tutur məni, bir tərəfdən sevinirəm"*



# "İnanın, hazıram Bakıdakı mənzilimi satım"

## Tahir İmanov: "Onun pulunu Şuşada babamın evinin bərpasına, yenidən qurulmasına sərf edim"

"Xarıbülbül" festivalının əks-sədası dünyaya yayıldıqca, mənfur düşmən tarixi məğlubiyyətinin acısını daha da ağır hiss edir. Düşmən başa düşür ki, 28 il əvvəl zorla daxil olduğu Şuşaya bir də heç vaxt sahiblənə bilməyəcək. Çünki Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil. Azərbaycan səsi dünyada eşidilən, sözü keçən və sözünü keçirə bilən güclü bir dövlətdir.

Azərbaycanın şücaətli ordusu, müzəffər Ali Baş Komandanı var. "Xarıbülbül" festivalının təntənəli bağlanışı ümummilli lider Heydər Əliyevin işğal altındakı torpaqlarla bağlı illər öncə, hətta bir qədər də kövrək səslə dediyi sözlər və Prezident İlham Əliyevin qalib ordunun komandanı kimi 8 noyabrdakı Qələbə bəyanatının təkrar səsləndirilməsiylə başa çatdı. Bu, mənzərə həmin an Şuşada Cıdır düzündə olanlara da, evdə ekran qarşısında festivalı izləyənləri də - hamını, hər kəsi kövrəltməklə yanaşı, həm də tərifi mümkünsüz olan qürur hissi yaşatdı. Cənab Prezident festival iştirakçılarının, demək olar, hamısı ilə əl verib görüşdü. O cümlədən Əməkdar artist, "Planet Parni iz Baku" KVN Teatrının bədii rəhbəri Tahir İmanov və əməkdar artist Cabir İmanovla da. Tahir və Cabir İmanovların Azərbaycan mədəniyyəti və bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, xalq artisti, bəstəkar, əslən şuşalı Süleyman Ələsgərovun nəvələri olduğunu sadəcə, ona görə xatırladırıq ki, Şuşaya növbəti səfərləri, "Xarıbülbül" festivalı barədə danışmağa haqqı olanlar sırasındadırlar. Şuşaya köküylə, mənəviyyatı, ruhu ilə bağlı olanlardan "Şuşa necə idi?" soruşmağın ayrı özəlliyi var.

**Həmsöhbətimiz Xalq artisti, görkəmli bəstəkar Süleyman Ələsgərovun nəvəsi Tahir İmanovdur:**

- "Xarıbülbül" festivalı fantastik idi!.. Bir azərbaycanlı kimi, lap sadə bir vətəndaş kimi deyə bilərəm ki, tarixdə hələ belə möhtəşəm tədbir olmamışdı. Həm siyasi, həm mədəni baxımdan nəhəng bir tədbir idi. Ən əsası vaxtında keçirilən tədbir idi. Orda keçirdiyim hissləri, yaşadığım təəssüratı, inanın, sözlə ifadə etməkdə çətinlik çəkirəm. Hansı sözləri tapıb deyim ki, orda yaşadığım hissləri ifadə edə bilsin?!. Mümkün deyil...

**- Tahir müəllim, festivalın sonunda cənab Prezident, birinci xanım Mehriban Əliyeva səhnəyə qalxdılar, orda "Qarabağ", "Azərbaycan" nidaları səsləndi. Və cənab Prezident adətinə uyğun yenə də bütün iştirakçılarla səmimi şəkildə əl verib görüşdü. Sizinlə də görüşdü...**

- İnanın, bu əvvəlcədən planlaşdırılmamışdı. Mən də, qardaşım da sadəcə, izləyici idik. Hətta bəziləri bizdən soruşur ki, "siz niyə orda deyildiniz?". Cavab veririk ki, ordaydıq. Amma biz də tamaşaçı idik. Cənab Prezident festival iştirakçıları ilə görüşdü, fotolar çəkildi, bizi də gördü və biz də onunla salamlaşdıq. Orda Prezidentlə qısa söhbətimiz oldu. Dedim ki, cənab Prezident, icazə verin, biz də qardaşımla babamın evinin təmirində, bərpasında iştirak edək. Sement qarışdıraq, daş daşıyaq. Ən çirkli işləri görməyə hazırıq. Zibil də daşıyarıq. Təki biz də bu işdə iştirak edək. Cənab Prezident də xeyir-dua verdi.

**- Siz bir neçə ay öncə Şuşaya səfər edib qayıdanda "Şərq"ə verdiyiniz müsahibədə də demişdiniz, Süleyman Ələsgərovun evinin bərpasında iştirak etmək istəyirsiniz...**

- Bəli. Mən başa düşürəm və qəbul edirəm ki, bu işlər özfəaliyyət çərçivəsində olmamalıdır. Kim harda istəyir, nəsə tiksin, nəsə bərpa etsin. Şuşada görüləcək işlərin hamısı dəqiq dövlət proqramına uyğun aparılacaq. Amma bizim ən böyük istəyimiz baba ocağının bərpasında iştirak etməkdir. Bununla həm də bir təskinlik tapmaq istəyirik ki, biz də nəsə etdik. İnanın, hazıram, Bakıdakı mənzilimi satım, onun pulunu babamın evinin bərpasına, yenidən qurulmasına sərf edim. Evi alçaq düşmənlərimiz elə vəziyyətə salıb ki, orda xeyli iş görülməlidir. Məlumdur ki, o evə mərmi düşməyib, top dağıtmayıb. O "insanlar" evi elə bərbad vəziyyətə salıb. Gözlərinə görünəni söküb aparıblar. Daşını, döşəməsini... Mən də, qardaşım da qollarımızı çırmalayıb işləmək istəyirik o evdə, o həyətdə.

**- Necə bilirsiz, bu işlərə nə zaman başlanacaq?**

- Bununla bağlı heç bir fikrim yoxdur. Yəqin ki, dövlət proqramı əsasında bütün işlər görüləcək. Ümidimiz cənab Prezidentədir. Çünki indiyədək cənab Prezident həmişə bizi dəstəkləyib, ən çətin anlarda bizə dayaq olub. Yaxşı olar ki, məmurlar özləri hərəkətə gəlsin. Prezidentin onlara irad bildirməsinə ehtiyac qalmasın. Süleyman Ələsgərovun evi mənim üçün hər şeydi. Uşaqlığımız, yeniyetməlik çağımız orda keçib, O evdə tərbiyə görmüşük, həyat qanunlarını öyrənmişik. Əsas odur ki, babamın evi əvvəlki görkəminə qayıtsın.

**- İnşallah olar. Tahir müəllim, əslən şuşalı olan birinin Şuşaya qayıtması sözsüz ki, tamam fərqli duyğularla müşayiət olunur. Siz Şuşaya gedəndə doğma evinizə gedirsiz. Baxmayaraq ki,** yöndəmsiz yeni evlər tikilib e, Şuşada, sırayla...

**- Hə, xatırlayıram, bir-birinə oxşayan evlər...**

- Bax, ora dediyim Mamayi məhəlləsidir. Qədim evlərin hamısını söküb ermənilər, yerində o yöndəmsiz evləri tikmişdilər. Sizə bir şey deyim. Ata babamın da, nənəmin də evlərini, hamısını halal edirəm. Təkcə Süleyman babamın evinin təmir olunmasını istəyirəm. Bu bizə yetər.

**- Müsahibələrinizdə həmişə xatırlayırsınız ki, Şuşaya kim gəlirdisə, Süleyman Ələsgərovun evində qonaq olurdu. Yəqin siz də o ev bərpa edildikdən sonra bu ənənəni davam etdirərsiniz.**

- Əlbəttə. Mən elə indi də hamını, dostlarımızı evimizə dəvət edirəm. Şuşaya ayaq basan kimi, mən də, qardaşım da deyirik, gedək bizə. Özü də biz maşınla getmirik, piyada hərəkət edirik. Hər küçəni, hər döngəni tanıyırıq. Babam Şuşadan aralı düşmürdü. Bakıda bir işi olanda gələrdi, işlərini bitirən kimi yenə qayıdardı Şuşaya. Ona görə bizim ev - babamın evi daim içində yaşayış olan ev idi. Qonaqlar da gələndə rahat şəkildə qalırdılar, babam onları qonaq saxlayırdı. Bilirsiz, "Xarıbülbül" festivalında mən Süleyman Ələsgərovun nəvəsi olduğuma görə, bir daha qürur hissi keçirdim. Siz də təbii ki, izləmisiniz, orda Azərbaycanın böyük sənətkarlarının demək olar hamısı iştirak edirdi. Neçə nəfər orda bizə yaxınlaşaraq Süleyman Ələsgərovu xoş xatirələrlə andılar. Xalq artisti Alim Qasımov mənə dedi ki, onu ilk dəfə Şuşaya Süleyman Ələsgərov gətirib. Elə bir mədəniyyət xadimimiz tapılmaz ki, Süleyman Ələsgərovun onun həyatında rolu olmasın. Hamıya hansısa şəkildə yardımı, köməyi toxunub babamın. Sağ olsunlar ki, bunu deyirlər, etiraf edirlər, rəhmət oxuyurlar. Bunları eşidən biri

**"Bunları sakit danışa bilmirəm... Çox təsirlənirəm... Amma deyəcəm; 21 ildir babam rəhmətə gedib, mən bu 21 ildə onun kimi insanı çox axtardım, tapmadım..."**





**Şuşada ana babanızın evi olub...**

- Yox, təkcə ana babamın evi deyil, biz ata tərəfdən də şuşalıyıq.

**- Bunu bilmirdim...**

- Bəli. Bizim Şuşada 4 ocağımız var. Ata babam da şuşalıdır. Ata tərəfdən də babamın evi Şuşada olub, indi də durur o ev. Nənəmin evi yerli-dibli dağılıb. Amma ata babamın evi qalır. Süleyman Ələsgərovun həyat yoldaşı - nənəm Şuşanın məşhur Qaraşarlı nəslindəndi. Onların evi Mamayi məhəlləsindəydi. Bəlkə də videolarda görmüsünüz, bir-iki bamla o qədər gəzmişik ki, o küçələri, o yerləri, haranı desələr, gözü yumulu da taparam. Şuşaya gələndə yol boyu nə tikili gözə dəyirsə, hamısını izah edirik; ora Şuşa türməsidir, bu Seyidlər məzarlığıdı, bu yol Cıdır düzünə aparır... Evlər, tikililər haqqında məlumat verirəm. Təəccüblə soruşurlar ki, hardan bilirsən? Necə bilməyim?! Birincisi, bu, genetik yaddaşdı. Bir də ki, babam bizi gəzdirib o yerlərdə, onlar haqqında bizə danışıb.

**- Tahir müəllim, deyirsiz ki, Şuşaya kim gəlirdisə, Süleyman Ələsgərovun evində qonaq olurdu. Maraqlıdır, məsələn, mayestro Niyazinin Şuşada evi yox idi, yəni Hacıbəyli nəslindəndi, ya da digər görkəmli sənətkarların, karifeylərimizin...**

- Bəlkə də olub. Bilmirəm. Amma babam Şuşada yaşayırdı. İlin çox hissəsini, istər qış olsun, istər yay, Şuşadakı evində qalırdı. Ola bilsin bizim digər karifeylərimiz Şuşada yaşamayıblar. Paytaxtda işləyiblər, evləri də paytaxtda olub. Daimi yaşayış məskəni olmayıb Şuşa onlar üçün. Amma kimi mən yenə deyirəm, qürur duyurdum ki, Süleyman Ələsgərovun nəvəsiyəm... Bunları sakit danışa bilmirəm... Çox təsirlənirəm... Amma deyəcəm; 21 ildir babam rəhmətə gedib, mən bu 21 ildə onun kimi insanı çox axtardım, tapmadım...

**- Tahir müəllim, Allah rəhmət eləsin Süleyman Ələsgərova. Şübhəsiz, ruhu şaddır. Sizdən soruşmaq istədiyim bir də budur ki, "Şuşaya səfər var", "Şuşaya gedəcəksiz" xəbərini alanda hansı hissləri keçirirsiniz?**

- Gecələr yatmıram. Gözümə yuxu getmir. Özümə deyirəm ki, maşında yataram. Amma maşında da gözümü yuma bilmirəm. Sanki Şuşa yolunu bir də, bir də, təkrar-təkrar gözlərimə köçürmək istəyirəm. Deyirəm, bəlkə bir də görmədim, doyunca baxım. Ağlamaq tutur məni, bir tərəfdən sevinirəm. Babalarımın, nənələrimin, dayımın əvəzinə kədərlənirəm, sonra onların əvəzinə sevinirəm. Nəsildə görün neçə nəfərin əvəzinə yaşayıram bu hissləri. Bütün bu hisslər bizim üzərimizdədi indi. Ona görə də Şuşanın adı gələndə emosiyalarıma hakim ola bilmirəm...

**Məlahət Rzayeva**

# Müharibə tək bir regiona təsir etməyəcək



İsraillə Fələstin arasındakı gərginlik davam edir. Livandan İsrailə üç raket atılıb. Məlumata görə, raketlər Aralıq dənizinə düşüb, hücum nəticəsində xəsarət alan olmayıb.

*Hərbi əməliyyatların miqyası böyüsə, daha təhlükəli vəziyyət yarana bilər*

Həmçinin bu günlərdə İsrail Hərbi Hava Qüvvələrinin HƏMAS Daxili Təhlükəsizlik Xidmətinin əsas əməliyyat qərargahının yerləşdiyi binaya hücum etdiyi barədə xəbər yayılıb.

Bəzi yerli və əcnəbi ekspertlərin fikrincə, Yaxın Şərqdə baş verən proseslər bizim regionumuz üçün də ciddi təhlükədir.

**Yaxın Şərq üzrə siyasi şərhçi Vüqar Ziferoğlu da bu fikirdədir. O, ”Şərq”ə açıqlamasında İsrail və Fələstin arasındakı savaşı belə şərh etdi:** ”Sözügedən müharibə yalnız konkret bir regiona təsir etməyəcək qədər ciddidir. Hərbi əməliyyatların miqyası böyüyəcəyi təqdirdə ancaq Cənubi Qafqaza deyil, digər regionlara da təhlükə yarana bilər. Təəssüf ki, Yaxın Şərqdə maraqlı olan üçüncü qüvvələr bunu bildikləri halda Fələstin-İsrail toqquşmasından öz xeyirlərinə istifadə edirlər. İndiki gedişat, o cümlədən bəzi Qərb və Yaxın Şərq ölkələrinin məsələyə münasibəti də bunu göstərir. Hər iki tərəfdən yüzlərlə günahsızın qanı üzərində siyasət quran tərəflər var”.

## "İsrail-Fələstin toqquşmasında Tehran da iştirakçıdır"

*Analitikin fikrincə, rəsmi Tehran baş verənlərdə bilavasitə iştirakçıdır:* ”1978-ci ildəki islam inqilabından sonra İranın xarici siyasətində iki əsas məsələ var idi. Bunlardan biri məhz Fələstin məsələsində siyasi dividend qazanmaq olub. Əgər Hizbullahın nəzarəti altında olan Livandan İsrailə raket zərbəsi endirilirsə, o zaman İranın proseslərdə dolayısı olsa belə iştirak etmədiyini deyə bilmərik.”.

**V.Ziferoğlunun fikrincə, indiki məqamda ən optimal variant təxribatlara getməməkdir:** ”Bir neçə gündür hər iki tərəfdən müsbət mesajlar var idi. Lakin birdən-birə Livandan İsrailə ard-arda raketlərin atılması ”sulanın bulandığını” göstərir. Deməli, proseslərin daha dinc məcraya keçməsini istəməyənlər var. Ona görə də İsrail və Fələstin qətiyyət göstərərək qarşılıqlı güzəştə getməli və problemi birdəfəlik həll etməlidir. Hər halda konflikt bir neçə onillikdir ki, davam edir. Hər iki tərəf əziyyət çəkir. Qazanan isə münaqişənin alovlanmasında maraqlı olan tərəflərdir”.

**Kənan Novruzov**

## Erməni cinayətləri dünyaya çatdırılır

“Hər kəs, o cümlədən də bütün müvafiq qurumlar əllərindən gələni etməlidirlər”



**”Ədliyyə Nazirliyinin beynəlxalq fəaliyyəti” mövzusunda onlayn brifinq keçirilib.**

Tədbirdə Beynəlxalq Əməkdaşlıq İdarəsinin qrup rəhbəri Azər Cəfərov çıxış edib. O bildirib ki, vətən müharibəsi vaxtı Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsi ölkəmiz tərəfindən aparılan haqlı mübarizəni beynəlxalq tərəfdaşlara çatdırmaq üçün öz səlahiyyətləri çərçivəsində işlər görüb”.

A.Cəfərov bildirib ki, bu dövr ərzində nazirlik tərəfindən 77 dövlətin ədliyyə nazirliklərinə, 10 beynəlxalq təşkilata 400-dək məktub göndərilib: ”Məktublar erməni tərəfinin cinayətləri, onların acı nəticələri ilə bağlı olub. Müharibə dövründə Ermənistan tərəfi bir sıra cinayətlər törədib ki, bunlar həm uşaqlara, həm də mülki şəxslərə qarşı olub. Bunlarla bağlı ixtisaslaşmış qurumlara məktublar gedib”.

**Millət vəkili Fazil Mustafa sözügedən təşəbbüs barədə fikirlərini ”Şərq”lə bölüşüb:** ”Hər kəs, o cümlədən də bütün müvafiq qurumlar əllərindən gələni etməlidirlər. Bu, çox vacib məsələdir. Hər kəs öz işini görsə, çox ciddi nəticə əldə edə bilərik. Dediyim kimi, əlimizdən gələni etmək hər birimizin borcudur”.

**Kənan**

## Putin və Bayden İsveçrədə görüşə bilərlər



**Rusiya prezidenti Vladimir Putinlə amerikalı həmkarı Co Bayden İsveçrədə görüşə bilərlər.**

Bu barədə ”Şərq” ”RİA Novosti”yə istinadən xəbər verir. Bildirilir ki, bu, sadəcə ehtimaldır.

Yekun qərar isə Rusiya Xarici işlər naziri Sergey Lavrovla ABŞ dövlət departamentinin rəhbəri Entoni Blinken arasındakı müzakirədən sonra veriləcək.

**Kənan**

## Bayden ailəsi ötən il 600 min dollar qazanıb



**ABŞ Prezidenti Co Bayden və həyat yoldaşı Cill Bidenin 2020-ci ildəki gəliri məlum olub.**

”Şərq” ”Ntv.com”a istinadən xəbər verir ki, Bayden ailəsi keçən il 607.336 min dollar gəlir əldə edib. Prezidentlik kampaniyası səbəbilə 2019-cu ildə gəlirlərində nisbətən azalma yaşayan Bayden ailəsi, keçən il 157.414 min dollar federal gəlir vergisi ödəyib. Bayden cütlüyü 2019-cu ildə 944.737 min dollar qazanıb və 299.346 min dollar federal gəlir vergisi ödədi. C.Bayden və həyat yoldaşı keçən il ümumi gəlirlərinin yüzdə 5-ni 10 fərqli xeyriyyə təşkilatına bağışlayıb.

**Yeganə**

# ABŞ-la danışıqlar dayandırılmayacaq

*İranda kimin prezident seçilməsi vəziyyəti dəyişmir*



İyun ayının 18-də İranda keçiriləcək prezident seçkilərinə irəli sürülən namizədlərin qeydiyyatı prosesinə başlanılıb. İndiyədək 300 nəfərin prezidentliyə iddialı olduğu bildirilir. Lakin əsas rəqabətin cəmi bir neçə nəfərin arasında gedəcəyi gözlənilir. Onların arasında eks-prezident Mahmud Əhmədinejad və parlamentin sabiq spikeri Əli Laricaninin adları daha çox çəkilir.

Bundan başqa, keçmiş prezident Əli Əkbər Haşimi Rəfsəncaninin oğlu Mohsin Haşimi, sabiq müdafiə naziri Hüseyn Dehqan, keçmiş rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Həsən Haminin və İbrahim Rəisinin də adları çəkilir. İslam İnqilabı Keşikçiləri Korpusunun sabiq komandanı Möhsün Rezayi, ”SEPAH” komandarinin keçmiş müşaviri Said Məhəmməd də populyar namizədlər hesab edilir. İddialılar arasında Mahmud Əhmədinejad əvvəllər prezident vəzifəsini tutmuş yeganə siyasətçidir. O, hətta üçüncü dəfədir ki, bu posta namizədliyini irəli sürür. Ultra-sağçıların nümayəndəsi kimi ilk dəfə 2005-ci ildə seçkilərdə qalib gələn Əhmədinejad mühafizəkar düşərgədə yüksək reytinqə malikdir. 2018-ci ildə İranda baş verən etiraz aksiyaları zamanı Mahmud Əhmədinejad insanları hakimiyyətə qarşı mübarizəyə çağırmışdı. Bu mənada, onun namizədliyinin qeydə alınmaması da gözləniləndir.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında bildirib ki, budəfəki seçkilər daha ağır sosial və iqtisadi problemlər fonunda keçiriləcək.** Ekspertin sözlərinə görə, İslam İnqilabından sonra İranda siyasi elita islahatçılar və mühafizəkarlara bölünüb və iki partiya arasında prezidentlik uğrunda yarış gedir: ”Hazırkı prezident islahatçıların namizədi Həsən Ruhani mövcud konstitusiyaya uyğun olaraq iki dəfədən artıq seçilə bilməz. İslahatçıların hakimiyyəti dövründə, yəni 2015-ci ildə nüvə sazişi bağlanılsa da, iki ildən sonra Donald Tramp sazişdən çıxaraq İrana sanksiyalar tətbiq etdi. Məhz bu sanksiyalar İranın iqtisadi və sosial sisteminə, Yaxın Şərqdəki siyasi-hərbi mövqeyinə ciddi zərbə vurdu. Lakin ABŞ Prezidenti Co Baydenin İranla nüvə danışıqlarını bərpa etməsi və sanksiyaların götürülməsi sözsöhbəti islahatçıların mövqelərini möhkəmləndirə bilər. Əgər Vaşinqtonla danışıqlar başlamasaydı, seçkilərdə mühafizəkarların əli güclənəcəkdi. Bu gün İran əhalisi Qərblə əlaqələrin bərpasında və iqtisadi sanksiyaların aradan götürülməsində maraqlıdır. Bu da islahatçıların mövqeyini möhkəmləndirir”.

*Analitik vurğulayıb ki, mühafizəkarların lideri İbrahim Rəisi öndə gedir:* ”Seçkilərdə hərbiçilərin iştirakına da şərait yaradılıb. Amma xalqın seçkilərdə fəal olacağı, kütləvi etirazların baş verməsi gözlənilmir. İranda kimin prezident seçilməsindən asılı olmayaraq, ABŞ-la nüvə danışıqları davam edəcək. Çünki bu prosesin başında ali rəhbər S.Ə.Xamneyi dayanır. Onun təlimatı və birbaşa razılığı ilə bu danışıqlar davam edəcək. Məqsəd İranın iqtisadi vəziyyətini nisbətən sabitləşdirmək və regionda mövqeyini qorumaqdır. İranın Yaxın Şərq siyasətinə gəldikdə isə rəsmi Tehranın əvvəlki mövqeyindən geri addım atacaq. İsrail-Fələstin münaqişəsində rəsmi Tehranın bir qədər aralı dayanması da bu prosesin davamıdır. Yeni prezident Səudiyyə Ərəbistanı və məxfi şəkildə İsraillə danışıqları davam etdirəcək”.

**İsmayıl Qocayev**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Fransa Azərbaycanla açıq düşmənçilik edir

*Makronun davranışları iki ölkə arasında onsuz da soyuq olan münasibətləri gərginləşdirə bilər*

Ermənistan rəhbərliyi Zəngəzur istiqamətində Azərbaycan Ordusunun dövlət sərhədini bərpa etmə prosesi ətrafında yalançı hay-küyünü davam etdirir. Əslində Azərbaycan Ordusu GPS və xəritələr əsasında davranır və heç bir aqressiv addım atmır. Buna rəğmən, erməni tərəfi Ordumuzun Qaragölə nəzarətini "Ermənistan sərhədlərinə müdaxilə" kimi təqdim edərək müxtəlif dövlətlərə şikayətə başladı. Rusiya lideri Vladimir Putindən tutmuş Fransa rəhbəri Emmanuel Makrona qədər, bir neçə dövlət başçısına dəfələrlə zəng edən Nikol Paşinyan Qaragöl ətrafında şounu genişləndirməyə çalışdı.



Paşinyan Fransa Prezidenti Makrona zəng edərək Azərbaycan Ordusunun, guya, Ermənistan sərhədinə müdaxilə etdiyini bildirdi. Yelisey sarayından yayılan məlumata görə, Makron Ermənistanın ərazi bütövlüyünə bağlılığını dilə gətirib. Eyni zamanda, ənənəvi simasını nümayiş etdirərək hadisənin mahiyyətini bilmədən və yaxud öyrənmək istəmədən, ”qərarını” elan edib. Təcili surətdə ”Azərbaycan qoşunlarının Ermənistan ərazisindən çıxarılması gərəkdiyini” bəyan edib.

Məsələnin mühüm tərəfi Paşinyanın məhz Makrona müraciəti, Fransa prezidentinin isə birtərəfli açıqlamasıdır. Halbuki, Ermənistan KTMT-nin üzvüdür və bu marionet dövlətin sərhədlərini də Rusiya Sərhəd Xidməti qoruyur. Başqa sözlə, faktiki olaraq Ermənistan sərhədi Rusiyanın nəzarətində, KTMT-nin himayəsindədir. Əgər sərhəddə hər hansı gərginlik varsa, bunu Rusiya sərhədçiləri ilə Azərbaycan Ordusu müzakirə edir və sərhəd delimitasiyasını aparırlar. Belə məqamda Fransaya şikayət etmək nəyə lazımdır? Görünür, Nikol Paşinyan da həmin ərazilərin Azərbaycana məxsus olduğunu, Azərbaycan Ordusunun GPS və xəritələrlə davrandığını yaxşı bilir. Rusiya və KTMT də Paşinyana məhz bunu çatdırıb. Həqiqətin Rusiya tərəfindən təsdiqlənməsindən sonra isə Nikol Makrona üz tutub. Kremlin mətbuat katibi Dmitri Peskov bildirdi ki, Rusiya Prezidenti Vladimir Putin üçtərəfli razılaşmaların icrasının alternativsizliyinin tərəfdarıdır: ”Rusiya Ermənistan və Bakı ilə daim təmasdadır. Hazırda gərginliyin aradan qaldırılması və vəziyyətin düzəlməsi üçün səylər göstərilir”. Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın hərbi yardımla bağlı məktubunu Putinin alıb-almaması ilə bağlı sualına isə Kremlin sözçüsü belə cavab verib: ”Dəqiq deyə bilmərəm”. Yəni Moskva ”sərhəd problemi”ni həqiqi problem görmədiyini açıq şəkildə İrəvanın diqqətinə çatdırıb.

Fransa prezidentinin olaya qeyri-peşəkar, birtərəfli və qeyri-obyektiv münasibəti isə Fransanın Cənubi Qafqaz siyasətinin və Minsk qrupunun həmsədri kimi iflasının daha bir sübutudur.

Azərbaycan Xarici İşlər Nazirliyi vurğulayıb ki, sərhəd demarkasiyası və delimitasiyası ikitərəfli məsələdir, olduqca mürəkkəb və texniki bir prosesdir: ”Üçüncü ölkələrin bölgədəki vəziyyətlə əlaqədar, gərginliyin kəskinləşməsinin aradan qaldırılmasına yönələn narahatlıqlarını başa düşürük. Hesab edirik ki, belə həssas bir mövzuda hər hansı bir açıqlama verməzdən əvvəl bütün fundamental səbəblər və məsələlər hərtərəfli araşdırılmalıdır. Təəssüf ki, bu texniki məsələ təxribat xarakterli bəyanatlar və Azərbaycana qarşı qarayaxma kampaniyası ilə şişirdilib. Bu cür destruktiv yanaşma yalnız gərginliyin artmasına xidmət edir”.

Rusiyalı tarixçi və siyasi analitik Oleq Kuznetsov deyib ki, Fransa prezidenti öz sözləri ilə Minsk qrupunun tabutuna son mismarı vurub və onun Qarabağ tənzimlənməsi prosesinə hər hansı formatda qayıtması perspektivinin üzərindən xətt çəkib: ”Bu anadək Fransanın ermənipərəst mövqeyi müzakirə mövzusu idi. Artıq bunun real siyasət olduğu ortadadır. Bundan sonra heç bir skeptik bunun belə olmadığına inana bilməz. Fransa xarici siyasətinin həqiqi üzü birmənalı şəkildə dünya ictimaiyyətinə nümayiş olundu. Fransa artıq bundan sonra ATƏT Minsk qrupunun həmsədri olmaq hüququna malik deyil və təşkilat bu strukturu buraxmalıdır. Məhz Prezident Makron ATƏT Minsk qrupunun ”qatili” kimi tarixə daxil olacaq”. Politoloq əlavə edib ki, Makronun bəyanatı Ermənistandakı ermənilərə, Nikol Paşinyana deyil, Fransadakı ermənilərə hesablanıb: ”Orada gələn il prezident seçkiləri keçiriləcək və cənab Makron daha bir prezidentlik müddətində ölkəni idarə etmək istəyir. Bu məsələdə ona bir milyon Fransa ermənisinin səsləri və erməni diasporunun pulları lazım olacaq. Makron Cənubi Qafqazdakı oyununu artıq uduzub, indi o, erməni kartını daxili siyasi məsələlərdə oynamağa çalışır. Bu isə onu göstərir ki, Ermənistanın özü onu çox da maraqlandırmır”.

Makronun uğursuz bəyanatından sonra Xarici işlər naziri Ceyhun Bayramovla fransalı həmkarı Jan İv Lö Drian arasında telefon danışığı baş tutub. Nazir Ceyhun Bayramov sərhəd gərginliyi məsələsinin şişirdilməsi və siyasiləşdirilməsinin yolverilməz olduğunu və bu kimi məsələlərin danışıqlar yolu ilə həllinin vacibliyini qeyd edib. Nazirlər Azərbaycan-Ermənistan sərhədində baş verən son gərginliklə bağlı məsələləri müzakirə ediblər. C.Bayramov uzun müddətdən sonra Ermənistanla sərhədlərin gücləndirilməsi tədbirlərinin həyata keçirildiyi, bu xüsusda Azərbaycan sərhəd qüvvələrinin ölkəmizə aid mövqelərdə yerləşdiyi, tərəflər arasında mövcud olan fikir ayrılığı və yaranmış gərginliyin aradan qaldırılması üçün Azərbaycanın nümayiş etdirdiyi konstruktiv yanaşmanı qarşı tərəfin diqqətinə çatdırıb. Nazir sərhəd gərginliyi məsələsinin şişirdilməsi və siyasiləşdirilməsinin yolverilməz olduğunu və bu kimi məsələlərin danışıqlar yolu ilə həllinin vacibliyini qeyd edib.

Ümumən, son dövrlər Fransadan Azərbaycana qarşı ən yüksək səviyyədə, daha dəqiq desək, Prezident Emmanuel Makron səviyyəsində təxribat xarakterli fikirlər səsləndirilir. Heç kəs üçün sirr deyil ki, erməni lobbisi Fransada ciddi sosial, siyasi və iqtisadi bazaya malikdir. Həmçinin erməni diasporası Fransada mediaya ciddi nəzarət mexanizmlərinə sahibdir. Məhz buna görə də zaman-zaman Fransa mətbuatında həm Azərbaycana, həm də qardaş Türkiyəyə qarşı əkstəbliğat fikirləri yer almaqdadır.

**Millət vəkili Azər Badamov ”Şərq”ə deyib ki, Makron birtərəfli Ermənistanı dəstəkləyirsə, Fransanın ATƏT-in Minsk qrupunun həmsədrliyində işi yoxdur. Deputat təəssüflə qeyd edib ki, Fransa Prezidenti Makron öz erməni sevgisindən əl çəkmir:** ”Makron yaddan çıxarıb ki, Fransa rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Bu gün Azərbaycanın Sərhəd Xidməti Fransanın tanıdığı sərhədlərini bərpa edir. Azərbaycan Ordusu Ermənistanın ərazisində deyil və qarşı tərəfdən fərqli olaraq ölkəmizin başqa dövlətin torpaqlarında gözü yoxdur. Amma ərazimizin bir qarışını da ermənilərə güzəştə getmək fikrimiz yoxdur. Azərbaycan Sünik vilayəti ilə sərhəddə demarkasiya işlərini aparır. Əgər Ermənistan sərhəd postlarının qurulmasını siyasiləşdirirsə, bu onların problemidir. Biz öz sərhədlərimizi möhkəmləndiririk. Cənab Makrona onu da xatırlatmaq istəyirəm ki, ”Dağlıq Qarabağ” adında bir inzibati ərazi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü 44 günlük müharibədə, döyüş meydanında təmin edib. Azərbaycanın daxili işlərinə qarışmağa heç kim özündə haqq görməsin”.

Parlament üzvü vurğulayıb ki, Fransada ermənilərin kompakt yaşadığı Marsel şəhəri var: ”Bu gün Qarabağda sizin statistikanıza görə, 40-50 min erməni məskunlaşıb. Bu, Fransa üçün heç də böyük say deyil. Marsel şəhərini ermənilərin dövləti elan edin və kiçik qardaşlarınızı ora daşıyın”.

**Politoloq Qabil Hüseynli də ”Şərq”ə bildirib ki, Fransa Azərbaycana qarşı açıq düşmənçilik edir.** Onun sözlərinə görə, prezident Emmanuel Makronun son paylaşımında Azərbaycanı Ermənistan torpaqlarını işğalda günahlandırması, bu da azmış kimi, ermənilərə dəstək mesajı verməsi iki ölkə arasındakı onsuz da soyuq olan münasibətləri daha da gərginləşdirə bilər: ”Torpaqlarının 20 faizi ermənilər tərəfindən uzun müddət işğalda saxlanılan bir ölkənin ”işğalçı” adlandırılması Fransanın ədalət anlayışının və beynəlxalq hüquqa yanaşmasının göstəricisidir. Zəngəzur istiqamətində Azərbaycan Ordusunun dövlət sərhədini bərpa etməsi, görünür, Ermənistandan çox, onun havadarlarını ”narahat edir”. Bu narahatlıq o həddədir ki, Fransa prezidenti açıq-aşkar öz rəsmi hesabından Azərbaycan Ordusunun dövlət sərhədini bərpa etməsini Ermənistan torpaqlarının işğalı olaraq adlandırır. Fransa prezidenti öz paylaşımı ilə Fransanın tərəfli və qərəzli mövqeyini açıq-aşkar etiraf etmiş oldu. Azərbaycan Fransaya qarşı ciddi mövqe ortaya qoymalıdır. Bir ölkənin Senatı, Xarici İşlər Nazirliyi və Prezidentinin ard-arda Ermənistanla bağlı belə mövqe ortaya qoyması gözardı edilə bilməz. Rəsmi Bakı Fransanın ATƏT-in Minsk Qrupuna həmsədr olmasına etiraz etməlidir. Onsuz da ortada həll edilməli bir münaqişə daha yoxdur. Bəzi kiçik nüanslar qalıb. Lakin bu qədər açıq qərəz nümayiş etdirən ölkə həmsədr ola bilməz. Fransanın ölkəmizdə fəaliyyət göstərən səfiri ən qısa müddətdə XİN-ə çağırılmalı və Makrona görə bəyanat verilməlidir”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Qənimətlər Parkında rəzalət...

## Şəhid ailəsindən ödəniş tələb etmək utancvericidir



Bu günlərdə şəhid Fariz Həsənovun həyat yoldaşının sosial şəbəkədə yazdığı status böyük narazılığa səbəb oldu. Şəhid xanımı Hərbi Qənimətlər Parkında ondan ödəniş tələb edildiyini söyləyir:

"İndiyədək heç bir şikayət xarakterli status paylaşmamışdım. Amma dünən qarşılaşdığım situasiya məni buna vadar etdi. Müqəddəs Ramazan bayramımız idi. Hər kəs bilir ki, şəhid ailələri üçün bayramın "b" hərfi belə yaddır. Mənim üçün bayram övladlarımı atasının qanı bahasına alınmış qənimətləri və şərəfsiz erməni mənfurlarının boş qalmış papaqlarını göstərib, qürur hissi duymaq idi. Taksi ilə getdik, 5 nəfər idik, 2 xanım və 3 uşaq. Hərbi Qənimətlər parkına yaxınlaşanda növbənin hədsiz çox olduğunu gördüm. Bir az gözlədik, sonra gördüm uşaqlarla gözləmək mümkün deyil. Nəzarətçi oğlan var idi, ona yaxınlaşdım və şəhid ailəsi olduğumu bildirdim. Sağ olsun, əvvəlcə başsağlığı verdi, sənədim olduğunu soruşdu, mən də şəhid ailəsi olduğum vəsiqəni göstərdim və bizi növbəsiz keçirdilər. Kassanın yanında da bir oğlan dayanmışdı, neçə nəfər olduğumuzu və uşaqların yaşını soruşdu. Nəzarətçi oğlanın ona şəhid ailəsi olduğumuzu bildirməsinə baxmayaraq, bizi kassaya doğru yönləndirdi. Heç nə demədim, çünki mahiyyəti bir şey olmayan, əl çirki olan pula görə şəhidimin adını istifadə edəsi deyildim. Amma onlara məlumat verilmişdi ki, şəhid ailəsiyik. Nəysə, keçdim kassaya 4 manat ödədim, uşaqlara düşmürdü ödəniş. Və keçdik atamızın qanı bahasına alınmış qənimətlərə baxmağa. Sözümün əsl mənası odur ki, əgər şəhid ailələrinə, qazilərə hörmət qoyulmayacaqdısa, niyə şəhid verirdim mən? Bugünkü gün 2 manatı atamızın axan qanından üstün tutacaqdınızsa, niyə sinənizə döyüb Qarabağı biz aldıq deyirdiz?



"Həqiqətən də belə biabırçılıq varsa, dərhal ictimailəşdirilməlidir. Həmin adam ictimaiyyətin qarşısında ciddi cəzalandırılmalıdır"

Qarabağı siz almadınız, Qarabağı qanı Vətən torpağına qarışmış oğullar aldı. Qarabağı öz yarını tək qoyub, balalarını atasız qoyub, sinəsini irəli verən oğullar aldı... Qarabağı sağlamlığını bu Vətən yolunda qurban verib, bu dünyanın canlı şəhidi olan oğullar aldı... Söhbət 2 manatın mahiyyətindən getmir, söhbət bizim həqiqətənmi azərbaycanlı olmağımızdan gedir".

**Baş verənlərlə bağlı "Şərq"ə danışan Qarabağ qazisi, ehtiyatda olan gizir Natiq Mehdiyev bildirib ki, həqiqətən Hərbi Qənimətlər parkından bir şəhid ailəsindən ödəniş tələb ediblərsə, bu, olduqca utancvericidir:** "Çox ayıb olsun! İnanıram ki, göstəriş yuxarıdan yox, parkda duranların tamahından irəli gəlib. Ona görə də ödəniş istəyiblər. Həqiqətən də belə biabırçılıq varsa, dərhal ictimailəşdirilməlidir. Həmin adam ictimaiyyətin qarşısında ciddi cəzalandırılmalıdır ki, ondan sonra kimsə şəhid ailəsinə dırnaqarası baxmasın. Unutmasınlar ki, o qənimətlər şəhidlərimizin, qazilərimizin şirin canı bahasına gəlib çıxıb. Şəhid ailələrinin haqqıdır ki, parka ödənişsiz gəlsinlər, atalarının, övladlarının qəhrəmanlıqlarına, əl işlərinə baxsınlar".

**N.Mehdiyev vurğulayıb ki, Hərbi Qənimətlər parkından yığılan pullar "YAŞAT" Fonduna köçürülmür:**

"Bu günə qədər heç bir yerdə rəsmi məlumatda görməmişəm ki, yığılan pullar "YAŞAT" Fonduna köçürüləcək. Sadəcə ağızdan-ağıza keçən sözlərlə eşitmişəm və buna da aydınlıq gətirərək paylaşım etmişəm ki, yanlış məlumatdır, ora yığılan pullar "YAŞAT" Fonduna köçürülmür. Əslində pulların hara köçürüldüyünü də bilmirəm. Lakin Hərbi Qənimətlər parkı dövlətin diqqətindədir və orada yığılan pullar da dövlətimizə, millətimizə xeyirli bir iş üçün istifadə ediləcək".

**Yeganə Bayramova**

# Buraxılış imtahanları ötənilki kimi olub

## 150-200 bal toplayanların sayında ciddi fərq yoxdur



**Dövlət İmtahan Mərkəzi (DİM) tam (11 illik) orta təhsil səviyyəsi üzrə aprelin 22-si və 23-də keçirilən buraxılış imtahanlarının nəticələrini elan edib.**

Nəticələr DİM-in saytında yerləşdirilib. Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı), həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Məlumdur ki, tədris prosesi pandemiyaya təsadüf etdiyindən şagirdlər ənənəvi təhsildən uzaq qalıblar. Məhz bu məqamın imtahan nəticələrinə təsir göstərdiyi iddia edilir.

**Tarix elmi üzrə fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədov "Şərq"ə bildirib ki, istər pandemiya dövrü, istərsə də 44 günlük Vətən savaşının buraxılış və qəbul imtahanlarına təsiri danılmazdır:** "Lakin o demək deyil ki, imtahanın nəticələri kəskin şəkildə fərqlidir. Yüksək və maksimum bal toplayan şagirdlərin sayında azalmalar olsa belə, orta və ümumi nəticə baxımından ciddi fərq gözlənilmir. Məsələn, keçən il maksimum bal toplayanlar 3-4 nəfər idisə, bu il 1 nəfərdir. Hazırda keçən illə müqayisədə 150-200 bal toplayanların sayında ciddi fərq yoxdur. Bütün bunlar onu deməyə əsas verir ki, bu gün yüksək göstəricilərin ümumi sayında azalma ola bilər, amma orta göstəricilərdə elə bir ciddi fərq olmayacaq. Əksinə, indi orta bal toplayanların sayı keçən illə müqayisədə daha çoxdur. Buraxılış imtahanlarından sonra qəbul imtahanları gəlir. Pandemiya dövründə keçirilməyən mövzuları nəzərə alsaq, şagirdlərin asudə vaxtı çox olub və repetitor yanına gediblər. Ona görə də builki qəbul imtahanı nəticələrinin azalma ehtimalı yoxdur".

**Yeganə**

# Ayılar fotoqrafa hücum etmək istədi

## Naxçıvanda maraqlı görüntülər ortaya çıxıb



**Fotoqraf İradə Qədirovanın Ordubadda Göygöl ərazisində çəkdiyi ayı fotoları qısa müddət ərzində viral olub.**

Ölkə.az xəbər verir ki, fotoqraf ayının ona hücum etmək istədiyini bildirib:

"Bu il 6 il olacaq ki, təbiətdəyəm və məni tanıyanlar bilir ki, təhlükəli olsa da arzularımdan biri ayı görmək idi. Qarlı sahə üzərinə çıxmışdıq və sürücü dostumuz Səyyad ağır samovar aparırdı. Bir səs eşitdim, düşündüm ki, uşaq yıxılıb səs edir. Arxaya çevriləndə ayı gördüm. Yanında iki balası olan ana ayı nərildəyirdi və hücuma hazırlaşırdı. Amma zərərsiz və silahsız olduğumuzdanmı yoxsa, 4 nəfər olduğumuzdanmı, balalarını da yanına saldı, üzü arxaya mütəmadi çönüb baxa-baxa dağın başına qalxdı", - deyə o qeyd edib.

*Fotoqrafın çəkdiyi ayıların görüntüsü sosial şəbəkələrdə dəfələrlə paylaşılıb.*

# Məişət zorakılığından əziyyət çəkən insanların sayı artıb

## Yeni yaradılan mərkəzlərin qapısı ictimaiyyətin üzünə açıq olmalıdır



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmrinə əsasən, Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyində yeni tərkibdə yaradılmış "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Komissiyası"nın ilk iclası olub.

Nazirlikdən verilən məlumata görə, komissiyanın tərkibi əmək və əhalinin sosial müdafiəsi, ədliyyə, təhsil və daxili işlər, səhiyyə nazirliklərinin, Sosial Xidmətlər Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və müvafiq strukturların nümayəndələrindən ibarətdir. Sosial Xidmətlər Agentliyinin sədri, Komissiyanın sədri Vüqar Behbudov iclasda bildirib ki, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün əvvəllər bir sıra qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası aparılsa da, onların sonrakı fəaliyyətinin necə olduğu, hazırda da həmin mərkəzlərin fəaliyyətinin hansı səviyyədə olduğu məlum deyil. Ona görə də yeni komissiya tərəfindən həmin qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyətinə davamlı nəzarət həyata keçiriləcək, yeni yaradılan mərkəzlər isə komissiya tərəfindən akkreditə olunacaq.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən "Yenisabah.az" saytının baş redaktoru, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib ki, məişət zorakılığına qarşı mübarizə təkcə ayrı-ayrı dövlət qurumlarının deyil, bütövlükdə cəmiyyətin qarşısında dayanan ən ümdə vəzifələrdən biri olmalıdır:** "Həqiqətən, son illər Azərbaycanda məişət zorakılığından əziyyət çəkən insanların sayı artıb. Cəmiyyətdə aqressiyanın artması özünü zərif cinsin nümayəndələrinə münasibətdə daha çılpaq şəkildə göstərir. Hesab edirəm ki, məişət zorakılığına qarşı mübarizə imitasiya xarakteri daşımamalıdır. Kimsə xaricdən qrant almaq, yaxud daxildə hesabat vermək üçün bu işlərlə nəşğul olmamalıdır. İstər dövlət qurumları, istərsə də QHT-lər problemin mahiyyətinə varmalı, zorakılığı doğuran səbəblərin kökünə enməlidirlər. Məişət zorakılığına məruz qalmış zavallı insanların faciəsi başqaları üçün pul, qrant mənbəyinə çevrilməməlidir".

*S.Verdizadə qeyd edib ki, məişət zorakılığından zərər çəkənlər üçün yeni yardım mərkəzlərinin yaradılması özlüyündə nəcib təşəbbüsdür:* "Bu mərkəzlərin qapısı ictimaiyyətin üzünə açıq olmalı, hesabatlılıq təmin edilməlidir. Azərbaycanda effektiv ictimai nəzarət mexanizmi qurulmalıdır. Biz ancaq bir-birimizin fəaliyyətinə nəzarət etməklə hər birimizin rahat yaşayacağı cəmiyyət yarada bilərik".

**Aynurə Pənahqızı**

# Konstantinopolu fəth edən Sultan II Mehmed



Xaləddin Sofiyev,
Kulturologiya üzrə fəlsəfə doktoru,
dosent ADMİU-nun "Sosial-siyasi elmlər kafedrasının" müdiri

21 yaşında Konstantinopolu fəth edib İstanbula çevirən Sultan II Mehmed həm də şeir yazırdı. II Muradın (1421-1451) ölüm xəbəri, Manisada olan oğlu II Mehmedə çatan kimi o, vaxt itirmədən atına mindi və "məni sevən ardımca gəlsin" deyərək yola düşdü. Vəzirlər, bəylərbəylər, alimlər, ordu onu qarşılamağa çıxmışdı. II Mehmed əvvəlcə Ədirnəyə daxil oldu. 18 fevral 1451-ci ildə Ədirnə sarayında cülus (hökmdar taxtına çıxma) mərasimi başladı. II Mehmed bu möhtəşəm izdihamın qarşısında hökmdarlıq taxtına çıxdı. Bu onun hakimiyyətə ikinci gəlişi idi (1444-1446; 1451-1481). İkinci dəfə taxta çıxan Mehmed dövləti ailəsinin himayəsi ilə deyil, öz ağlı ilə idarə etməyə başladı.

Sultan II Mehmedin səltənətdə rəqibi yox idi. Böyük arzularına çatmaq üçün hazırlıq işləri görürdü. O, qarşısına qoyduğu məqsədə - İstanbulun (Konstantinopolun) fəthinə hazırlığı başladı. Mehmed əvvəlcə venesiyalılarla və macarlarla müqavilə bağladı.

Sultan II Mehmedin Karaman Bəyi ilə birləşdiyini görən Bizans imperatoru türklərdən daha çox güzəşt almaq üçün qəbul olunmaz yeni tələblər irəli sürdü. İmperator elçilərlə Orxan Çələbi üçün verilən bac-xəracın iki dəfə artdığını, bu xərac verilməzsə şahzadə Orxan Çələbini sərbəst buraxacağını, silah və donanma ilə türklərin əlində olan torpaqları işğal edəcəklərini bildirdi.

Orxan Çələbi xanədan çəkişmələrində uduzaraq Bizansın paytaxtına qaçmışdı. II Mehmed şahzadə Orxan Çələbinin saxlanılması üçün Bizans imperatoruna ildə 300 min akça verməyi öhdəsinə almışdı. Bununla da Orxan Çələbinin səltənət iddiası ilə çıxış etməsinin qarşısını alırdı. Görkəmli tarixçi Uzunçarşılının irəli sürdüyünə görə şahzadə Orxan II Muradın qardaşı, yəni II Mehmedin əmisi idi.

Bizans elçilərilə yaxşı davranaraq onları yola saldıqdan sonra Sultan II Mehmed Karaman üzərinə səfər etdi. Onun Karaman ilə çox məşğul olmaq niyyəti yox idi. Buna görə də Karaman Bəyi II İbrahim bəy ilə işləri tezliklə yoluna qoydu. Karaman səfərindən dönüb Gəliboluya gələrək Orxan Çələbi üçün heç bir ödənc verilməyəcəyini bildirdi. Buradakı rumların isə qovulmasını əmr etdi. Bu, Bizanslara verilən cavab idi.

İmperator çox ehtiyatsız hərəkət etdiyini anlamışdı, amma artıq iş-işdən keçmişdi. Gənc sultan artıq niyyətini gizlətmirdi. İstanbulun fəthi üçün hərbi işlər sürətlə gedirdi. İstanbulun dənizdən mühasirəsi üçün babası I İldırım Bəyazidin (1389-1402) Bosfor sahilində 1395-ci ildə tikdirdiyi Gözəlcəhisar (Anadolu qalasının) qarşısında Boğazkəsən qalasını (Rumeli qalasını) tikdirməyi qərara alır. 1452-ci ilin martında başlanan qalanın tikintisində 6 min adam iştirak edirdi. Qalanın tikintisi 4 aya başa çatdı.





Sultanın əmri ilə Boğazkəsən qalası vasitəsilə gəmilərə nəzarət edilirdi. Yük və hərbi gəmilər kömrük nəzarətindən keçməli və vergi verməli idi.

Boğazkəsən qalasının tikintisinin qurtarmasını eşidən imperator Sultanın yanına elçi göndərərək İstanbula hücumu dayandırmağı xahiş etdi və bunun əvəzinə nə qədər istəyirsə bac-xərac verəcəyini bildirdi. Bir mənbənin verdiyi məlumatda söylənilir ki, Bizans imperatoru Konstantin sultana məktubunda deyir ki, sənin hüquqi cəhətdən haqqın yoxdur ki, Konstantinopolu (İstanbulu) tutasan. Cavabında sultan belə deyir: "Mənim iki halda haqqım var şəhəri tutam. Birincisi ona görə ki, Allahtəala mənim alnıma bu işi yazmasaydı mən şəhərin qala divarına qədər gəlib çıxa bilməzdim, ikincisi ona görə haqqım var ki, siz şəhəri saxlaya bilmirsiniz, mən isə almağı bacarıram".

İstanbula Romadan və Genuyadan nümayəndələr gəlir və özləri ilə ərzaq və hərbi sursat gətirirdilər. Lakin daxildə də bunlara qarşı çıxanlar var idi. Türkün gücünü və bu müharibədə öz məğlubiyyətini görən Bizans hərbi donanmasının başçısı Luka Notaras məşhur bir cümlə söyləmişdi: "Latınların tacındansa, şəhərdə türk çalmasının hökmranlığı daha yaxşıdır".

Bizansları İstanbulu müdafiə edən hərbi qüvvələri haqqında mənbələrdə ətraflı məlumat yoxdur. Lakin göstərilir ki, 26 döyüş gəmisi var idi. İstanbulun əhalisi 200 mindən çox idi. İstanbulun divarları dünyanın ən möhkəm divarları idi. Hündürlüyü 27, eni isə 4 metr idi. Türklərin Ədirnədən hərəkət etdiklərini və İstanbula yaxınlaşdıqlarını görən bizanslılar Saray burnu ilə Xaliç arasında qalın zəncir çəkərək Xaliçin yolunu bağladılar. Bu qalın zəncir dairəvi birjalar üzərində oturdulmuşdu və türk gəmilərinin Xaliçə girmələrinə mane olacaqdı.

1 fevral 1453-cü ildə Sultan Mehmed "Şahı" adı verilən böyük topun İstanbula doğru çıxarılmasını əmr etdi. Bu topun dairəsi 3 metr, güllələrin ağırlığı 1500 kq idi. Türk orduları 100 min nəfərdən artıq idi. 6 aprel 1453-cü ildə ordu İstanbul divarlarının 700-800 metrliyinə yaxınlaşdı. Türk ordusunun başçısı Sultan Mehmedin 15 min nəfərlik süvari birliyi ilə mərkəzdə Topqapı ilə Ədirnəqapı arasında yer tutmuşdu. İstanbulun müdafiəsi 52 km bir ərazini əhatə edirdi. Mühasirə işləri tamamlandıqdan sonra sultan Bizans imperatorunun təslim olması üçün elçilərini göndərdi. İmperator təslim olmağı qəbul etmədi və müharibənin məsuliyyətini öz üzərinə götürmüş oldu.

Bizanslılar türklərin hücumunu Topqapı tərəfdən gözləyirdilər. Sultan Mehməd o günə qədər heç bir sərkərdənin ağlına gəlməyən taktika işlətdi. Qurudan Xaliçə qədər taxta düzdürdü və onun üzərinə piy sürtdürdü. Aprelin 22-də həmin taxtaların üzəri ilə gəmiləri Xaliç sularına endirdi.

Aprelin 24-də və 28-də bizanslılar əks hücuma keçdilər və hər ikisi müvəffəqiyyətsizliyə uğradı. Bundan qəzəblənən bizanslılar əsir saxladıqları 260 türkün başını kəsib qala divarlarının dibinə atdılar.

Sultan Mehmed İstanbulun alınması üçün tez-tez taktikasını dəyişdirirdi. 600 metrlik məsafədən lağım ataraq şəhərə girmək mümkün olmadıqda sultan bir gecədə İstanbulun divarlarından hündür olan, hərəkət edən qüllələr düzəltdirdi. Qüllələrdən şəhər top atəşinə tutulurdu.

29 may 1453-cü ildə Sultan "hücum" əmrini verdi. Toplar gurladı. "Allah! Allah!" səsləri göyü inlətdi və türk ordusu hər tərəfdən qabaran bir dəniz kimi divarlara doğru daşdı. 50 minlik türk qoşunu hücuma keçdi. Qala divarlarına 2 min nərdivan qaldırıldı. Bizanslılar yuxarı qalxan türk əsgərləri üzərinə qaynar yağ, Rum atəşi, daş-ox yağdırırdılar. Əyriqapı tərəfdən nərdivanla dırmaşan türk döyüşçülərindən kiçik zabit Ulubatlı Həsən əlindəki türk bayrağını bürcün üzərinə taxdı. Bizanslı oxçular tərəfindən Ulubatlı Həsən öldürüldü. Lakin onun ucaltdığı bayraq türk əsgərini coşdurdu.

İstanbul divarları ələ keçirildikdən sonra Sultan Mehmed Ulubatlı Həsənin qəbri üzərində dua oxudu, təşəkkür etdi. Uca səslə yanındakılara: - "Əgər Sultan olmasaydım, Ulubatlı Həsən olmaq istərdim" - dedi.

Bizans imperatoru Konstantin yaralı türk əsgəri tərəfindən öldürüldü. Ayasofiyada toplanan 50 min şəhər əhalisi sərbəst buraxıldı. Sultan baş nazir Lukas Notapasa Konstantinin cəsədinin tapılıb dini mərasimlə dəfn olunmasını əmr etdi.

29 may 1453- cü ildə 21 yaşlı Sultan Mehmed İstanbulu beləcə fəth etdi. Bundan sonra onu II Sultan Mehmed Fateh adlandırdılar. İstanbulun fəth tarixi "Qurani-Kərim" ayələrinin birində işarət edilmişdir. Həzrət Peyğəmbər hədisi- Şəriflərinin birində isə İstanbulun fəth ediləcəyini açıq-aşkar xəbər verirdi. Bu hədisi-Şərifdə deyilirdi: Konstantiniyyə (İstanbul) şübhəsiz fəth ediləcəkdir. Onu fəth edən əmr nə gözəl əmrdir. Bu əsgər nə gözəl əsgərdir!" Sultan II Mehmed Fateh Həzrəti Peyğəmbərin müjdələdiyi xoşbəxt döyüşçü oldu.

Fateh Sultan 49 il 7 ay 5 gün yaşadı. Səltənəti 30 il 2 ay 14 gün sürdü. Bu müddətdə o, iki imperatorluğu, dörd krallığı, altı prinsliyi, dörd əyaləti tutaraq 17 dövləti dünya xəritəsindən silmiş və torpaqlarını da öz imperatorluğuna qatmışdı.

Zəka və istedadlı, əski və yeni bilikləri tam olaraq qavrayışı və insani davranışlarıyla seçilmişdi. Ərəb və fars ədəbiyyatını dərindən bilməklə yanaşı, yunan filosoflarının da əsərlərini oxuyur və biliyini genişləndirirdi. "Avni" təxəllüsü ilə şeir yazırdı. Savadını artırmaq üçün daima yanında müəllimlər saxlayırdı.

Vətənin mənafeyini həmişə qorumuş, fikri dövlətində adamlarının yaxşı yaşamasına yönəlmişdi.

# İllərdir bazarda saxta nehrə yağları satılır



Bazarlarda "nehrə yağı" adı altında bitki mənşəli yağlar satılır. Bu, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin apardığı araşdırma nəticəsində təsdiqlənib.

*"Təkcə Yevlax bazarında yox, əksər bazarlarda vəziyyət eynidir. Biz dəfələrlə bildirmişik ki, "Nənəmin yağı" adı altında istehlakçıya satılan nehrə yağları saxtadır"*

AQTA tərəfindən Yevlax rayonu, Yevlax şəhəri, Fizuli küçəsində fəaliyyət göstərən hüquqi şəxs "Yevlax-Mərkəzi Bazar" ASC-yə məxsus ərzaq məhsullarının satışı bazarında yoxlama keçirilib. AQTA-nın məlumatına görə, yoxlama zamanı bazarın qida təhlükəsizliyi baxımından dövlət qeydiyyatına alınmadığı, satışa çıxarılan heyvan mənşəli məhsulların (süd və süd məhsulları, yumurta və s.) baytarlıq (baytarlıq-sanitariya) ekspertizasından keçirilmədiyi, temperatur rejiminə və sanitar-gigiyena qaydalarına əməl olunmadığı, bazar ərazisində antisanitar şəraitdə, baytarlıq ekspertizası aparılmadan quşların kəsiminin, həmçinin mənşəyi məlum olmayan turşuların satışının həyata keçirildiyi, ərzaq satışı mağazalarında mal qonşuluğu prinsipinin pozulduğu müəyyən olunub.

Eyni zamanda, qida məhsulları ilə birbaşa təmasda olan şəxslərin ilkin və dövri olaraq tibbi müayinədən keçmədiyi, vaxtaşırı olaraq dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılmadığı məlum olub. Laborator müayinələrin aparılması üçün baytarlıq (baytarlıq-sanitariya) ekspertizasından keçməmiş nehrə yağı adı altında satışa çıxarılan məhsullardan nümunələr götürülərək Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunub. Aparılmış müayinələr nəticəsində nehrə yağının istehsalı zamanı bitki mənşəli yağlardan istifadə edildiyi aşkar edilib. Faktla bağlı araşdırmalar davam etdirilir.

"AQTA-nın fəaliyyətini gücləndirmək lazımdır. Bu işdə əhali də fəal olmalıdır"

**Azad İstehlakçılar Birliyinin sədri, AQTA yanında İctimai Şuranın üzvü Eyyub Hüseynov "Şərq"ə açıqlamasında qeyd etdi ki, bazarda saxta nehrə yağlarının olduğu illərdir deyilir:**

- Bu barədə illərdir deyilir, istehsalçılardan çoxsaylı şikayətlər, narazılıqlar daxil olur. Təkcə Yevlax bazarında yox, əksər bazarlarda vəziyyət eynidir. Biz dəfələrlə bildirmişik ki, "Nənəmin yağı" adı altında istehlakçıya satılan nehrə yağları saxtadır. İstehlakçılar illərdir aldadılır. Həmçinin, kənd qatığı, kənd qaymağı adı altında tərkibinə marqarin, bitki yağları əlavə edilmiş saxta süd məhsulları bazara çıxarılır. Eyni vəziyyət "Gəncə qaymağı"na da aiddir. "Kənd yumurtası", "kənd çolpası" da həmçinin. İşbazlar əhalinin kənd məhsullarına marağını, tələbatı görüb saxta məhsul istehsalı ilə məşğuldur. Hazırda 20 saxta "İvanovka" mağazası var. Guya ki, bu mağazalarda İvanovkada istehsal edilən süd, ağartı məhsulları satılır. Halbuki, paytaxtda cəmi 3 qanuni və əsl "İvanovka" satış mağazası fəaliyyət göstərir.

**E.Hüseynov istehlakçıları saxta məhsullarla mübarizədə fəal olmağa çağırdı:**

- Bu işdə əhalinin köməyi vacibdir. Məsələ belədir ki, qida zəncirində iştirak edən hər bir subyekt AQTA-da qeydiyyata düşməlidir. Lakin bu iş könüllülük prinsipi əsasında olduğundan subyektlər, müəssisələr, şirkətlər AQTA-da qeydiyyata düşmür. Beləliklə də yoxlamalardan, təftişlərdən kənarda qalırlar. AQTA qida zəncirində iştirak edən subyektləri tam əhatə edə bilmir. Amma əhali fəal olsa, gördükləri nöqsanlar, üzləşdikləri saxtakarlıqlar barədə AQTA-nın "Qaynar Xətt"inə məlumat versələr, Agentlik daxil olmuş şikayət əsasında yoxlamalar apara. AQTA-nın "Qaynar Xətt"inin nömrəsi 1003-dür. İstehlakçılar həmçinin 441.28.33 nömrəsinə də zəng edə bilər. AQTA-nın fəaliyyətini gücləndirmək lazımdır. Bu işdə əhali də fəal olmalıdır.

**Məlahət Rzayeva**

## "Dünyada turizm anlayışı və turist profili çoxdan dəyişib"

"Yəni Azərbaycan burada özündən yeni bir velosiped kəşf etməli deyil"



"Müasir turist profili indi bir gecəlik qalmaq üçün çox baha qiymət ödəmək istəmir"

**Ölkədə 5 ulduzlu otellərə tələbat daha çoxdur. Bu barədə Dövlət Turizm Agentliyinin Regional turizmin inkişafı sektorunun müdiri Elgün Cavadov deyib.**

Onun sözlərinə görə, bu səbəbdən Azərbaycanda daha çox 5 ulduzlu otellər inşa edilir: "Turizmə investisiyanın cəlb edilməsi ilə bağlı İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilir. Bu sənədlərdə regionlarda aşağı ulduzlu otellərin tikintisi nəzərdə tutulur. Yalnız vətəndaşlar tərəfindən 5 ulduzlu otellərə tələbat çox olduğuna görə, həmin mehmanxanaların tikintisinə üstünlük verilir".

**Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, dünyada turizm anlayışı və turist profili çoxdan dəyişib. İqtisadçı qeyd edib ki, müasir turist profili bir gecəlik qalmaq üçün çox baha qiymət ödəməkdə maraqlı deyil:** "Hörmətli, Dövlət Turizm Agentliyinin Regional turizmin inkişafı sektorunun müdiri Elgün Cavadovun hansı araşdırmalara əsasən belə bir nəticəyə gəldiyi mənim üçün də maraqlıdır. Çünki dünyada turizm anlayışı və turist profili çoxdan dəyişib. Müasir turist profili indi bir gecəlik qalmaq üçün çox baha qiymət ödəmək istəmir. Yəni dünya təcrübəsi bunun tam əksini deyir. Son on ildə dünyada hostellərin sayı 20 dəfədən çox artıb. Yəni əksinə, ucuz otellər, hostellərin sayı durmadan, hətta dəfələrlə artır. Biz dünyadan kənar qalmış bir ada deyilik. Yəqin ki, bizdə də buna bənzər tendensiyalar var. Çox yaxşı olardı ki, rəsmi qurumun nümayəndəsi bunu hansı araşdırmaya əsasən dediyini, söylədiyini və bunun nədən bu nəticəyə gəldiyini ictimaiyyətə açıqlasa yaxşı olar. Əgər söhbət Ərəbistan yarımadasından gələn daha varlı turistlərdən gedirsə, onların qalması üçün kifayət sayda beş ulduzlu otellər var. Amma Avropa, Amerika, Asiya turistləri, əsasən də Yaponiya və Çin turistlərinin daha çox ucuz otellərə, ucuz hostellərə üstünlük verildiyi dünyada onlarla, hətta yüzlərlə araşdırmalar nəticəsində məlum olub. Yəni Azərbaycan burada özündən yeni bir velosiped kəşf etməli deyil. Dünyadakı qəbul olunmuş praktikaya görə turizmin Azərbaycanda da otelçiliyin ucuz seqmenti mütləq inkişaf etdirilməlidir".

**Aynurə Pənahqızı**

# Tələbələrin vəziyyəti nəzərə alınmalıdır

Ali və orta ixtisas təhsili müəssisələrində 2020-2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası distant (məsafədən) formada keçiriləcək.

*Auditoriyalarda imtahanlar ənənəvi qaydada təşkil edilə bilər*



Təhsil Nazirliyindən verilən məlumata görə, nazir Emin Əmrullayevin imzaladığı müvafiq əmrdə bildirilir ki, müəyyən fənlər üzrə imtahanlar əyani formada keçirildiyi təqdirdə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə və Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na riayət olunmalıdır. Əmrdə qeyd edilir ki, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri imtahan sessiyasının qüvvədə olan normativ sənədlər əsasında təşkilini təmin etməli, rəhbərlik etdikləri təhsil müəssisələrində imtahan qərargahı yaratmalıdırlar. Həmçinin qərargaha daxil olan hər bir şikayət operativ şəkildə araşdırılmalıdır. İmtahanların təşkilində və gedişatında nöqsanlara yol vermiş şəxslər barədə mövcud qanunvericiliyə uyğun tədbirlər görüləcək.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Kamran Əsədov vurğulayıb ki, artıq üçüncü semestrdir ki, imtahanlar distant formada təşkil edilir.** O qeyd edib ki, məsafədən təşkil edilən imtahanlar tələbələrə bir sıra çətinliklər yaradır: "Təbii ki, bizim 51 ali təhsil müəssisəsində təhsil alan 182 min tələbəmiz üçün bu formada imtahanların təşkil edilməsi müəyyən qədər çətinliklər yaradır. Bunun əsas səbəbi imtahanlara qoşulmaq üçün tələb olunan internetin bəzi hallarda olmaması və yaxud da sürətinin zəif olması ilə bağlıdır. Digər tərəfdən qeyd edim ki, əvvəllər yazılı imtahanlarda tələbələrə üç saat ərzində vaxt verilirdi. Bu müddət ərzində onlar imtahanda öz bilik və bacarıqlarını nümayiş etdirirdilər. Ancaq indi onlar çox qısa vaxt ərzində təxminən 10-15 dəqiqə ərzində verilmiş sualları cavablandırmalıdırlar. Təbii ki, bu da onların imkanları xaricindədir".

*K.Əsədov əlavə edib ki, qiymətləndirmə zamanı tələbələr bu qısa müddət ərzində müsbət qiymət almaqda da müəyyən qədər çətinliklərlə qarşılaşırlar:* "Çünki yazılı imtahan verməyə öyrəşmiş, yəni öz fikrini yazmağa önəm vermiş tələbələr prosesi şifahi qaydada həyata keçirməkdə çətinliklərlə üzləşirlər. Düzdür, əslində akademik bilgilərin daha yaxşısı şifahi formada özünü ifadə etməyi əks etdirir. Amma distant formada artıq üçüncü dəfə keçirilən imtahanlarda bir sıra çatışmazlıqlar yaranmaqdadır. Məsələn, imtahanın gedişində tələbə fikrini ifadə edəndə, danışanda birdən internet kəsilir və bu zaman artıq onun imtahan qiyməti qeyri-kafi hesab edilir. Hesab edirəm ki, belə amillər mütləq nəzərə alınmalıdır. Qeyd edim ki, onlayn imtahanlar zamanı müəllimlər tərəfindən qeyri-qanuni tələblər də baş verməkdədir. Belə ki, bizim bəzi müəllimlərimiz imtahandan öncə onlayn platforma üzərində tələbələrlə razılaşırlar və onların cavablarından asılı olmayaraq qiymətlər yazırlar. Yaxud da ki, cavabından asılı olmayaraq tələbələrdən hər hansı təmənna güddüklərinə görə tələbəni imtahan prosesində kəsirlər. Əlbəttə ki, bu proseslər qeydə alınır. Amma bu heç də o demək deyil ki, prosesin tam olaraq şəffaflığı təmin edilir. Fikrimcə, müəyyən fənlər üzrə imtahanlar ənənəvi qaydada təşkil edilə bilər. O tələbələrə ki, onlayn qaydada imtahanlarda iştirak etmək onlara çətindir və bu tipli qiymətləndirmə onlara uyğun deyil. Hesab edirəm ki, onlara ali təhsil müəssisələrinin auditoriyalarında imtahanların keçirilməsi üçün şərait yaradılsa yaxşı olar".

**Aynurə Pənahqızı**

# Cəhənnəm həyatı yaşatdı

## *6 ay arvadını zəncirlə dama bağladı*



(Əvvəli səh: 16-da)

Bu fürsətdən istifadə edərək pəncərədən qaçdım. Bu vaxt qonşum ilə qarşılaşdım və ondan kömək istədim".

Qonşusunun evinə sığınan E.A. atasını köməyə çağırdığını deyib: ”Atamdan məni qurtarmasını istədim. Dərhal bu barədə təhlükəsizlik orqanlarına məlumat verildi və Oktay Güler polislər tərəfindən nəzarətə alındı”.

*E.A.-ya sistemli şəkildə işgəncəyə məruz qaldığını söyləyib:* ”Evdən qaçmamağım üçün zəncirin bir ucunu ayağına bağlayırdı. Onunla qoşulub ailə həyatı qurduqdan sonra məni təhdid və təhqir etməyə başladı. Ona heç cür müqavimət göstərə bilmirdim. İşgəncələrini günbəgün sistematik hala gətirirdi”.

E.A-nın vəkili isə açıqlamasında bildirib ki, müvəkkilinin evinə getdiklərində onun ağır döyüldüyü açıq-aşkar bilinib: ”Üzü, gözləri və bədəni zədəli idi. Boğazı sıxıldığı üçün yemək yeyə bilmirdi. Qollarında və belində çox sıx qançırlar var idi. Ayağında zəncir izləri var idi. Onu bu cür görəndə dəhşətə gəldik.

**O.Gülər isə təhdid, təhqir, böhtan və təcavüzü inkar edib. O bildirib ki, həyat yoldaşıyla zamanla mübahisələri olub:** ”Gündəlik işlər üzündən mənə yalan danışdığına görə zaman-zaman mübahisə etdiyim doğrudur. Ancaq bunlar namus və qısqanclıqla əlaqəli deyil. E.A-nı heç zaman təhdid, təhqir etməmişəm və döyməmişəm. Deyilənlərin hamısı yalandır”.

**Aynurə**

# Nura Suri gileyləndi

“Tətilə 30 gün qalmış məktəbləri açmağı kim düşünüb?”



**”Mənə çox maraqlıdır. Yay tətilinə 20-30 gün qalmış, ”Formula 1” yarışlarına görə bağlanmış şəhəri nəzər almadan məktəbləri açmağı kim düşünüb?”**

”Şərq” xəbər verir ki, bu sözləri feysbuk profilində müğənni Nura Suri yazıb. O, fikirlərinə bunları da əlavə edib: ”Uşaqlar güc-bəla ilə onlayn dərslərə öyrəşiblər. İmtahan bir tərəfdən, dərsə gedib-gələndə tıxacda, ağızlarında 8 saat maskayla uşaqlara bu əziyyəti verməkdə məqsəd nədir? Adi insanları düşünən var? Camaat işə necə gedib-gəlsin? Bu isti havada insanlar niyə əziyyət çəksin? Zatən 2020-nin martından əziyyət çəkirik”.

**Samirə**

# “O, bilmədiyini danışmır"

Şəbnəm Tovuzlu Rəqsanəni haqlı çıxardı



**Müğənni Şəbnəm Tovuzlu ”Hüseynova bacıları” verilişində qonaq olarkən həmkarı Rəqsanə İsmayılovanın qalmaqallı açıqlaması haqda danışıb.**

**”Şərq” xəbər verir ki, o, R.İsmayılovanın dediklərində haqlı olduğunu söyləyib:**

”Gecə evə getməyən, Bakıda da getmir. Rusiyanın, ya buranın fərqi yoxdur. Evə gedən gedir, getməyən özü bilər. Rəqsanə xanım bilmədiyi şeyi danışmır. O nəsə görüb ki, deyir”.

*Qeyd edək ki, R.İsmayılova toyda oxumaq üçün Moskvaya üz tutan müğənnilərə irad bildirib. O, bəzi ifaçıların orada başqa işlərlə məşğul olduğunu iddia edib.*

# Adını çəkmək istəmədi

Məşhur adam Əli Mirəliyevi bıçaqlayıb



**Müğənni Əli Mirəliyev ”Onun sirri” proqramında qonaq olarkən illər əvvəl başına gələn bir hadisədən danışıb.**

*”Şərq” xəbər verir ki, o, söylədikləri ilə izləyiciləri təəccübləndirib. Ə.Mirəliyev məlum olayın futbol meydançasında baş verdiyini deyib:* ”Azarkeş kimi oturmuşdum. Futbolçuya pərəstiş edirdim, ona görə qışqırırdım. Həm də yaşım az olardı, uşaq idim. İki nəfər də mənə qanlı-qanlı baxırdı. Onların baxışı çox bahabaşa gəldi. Tramvaya minib evə qayıdırdım. Düşəndə ayağımdan bıçaqladılar. Özü də tanınmış adamdır. Sonradan məşhurlaşdı. Heç onun adını çəkmək istəmirəm”.

# Kərim Abbasov 500 manat istəyib

Bəzi müğənnilər xeyriyyə konserti üçün pul umurlar



**ARB TV-nin ”Bazar düzü” verilişində bir neçə müğənni haqda şok iddia irəli sürülüb.**

Proqramda mövzu xeyriyyə tədbirləri olub. Həmçinin xeyriyyə tədbirlərinin təşkilatçısı Ömər Abdullayev də proqamda iştirak edib.

”Şərq” xəbər verir ki, o, bəzi müğənnilərin xeyriyyə konserti üçün qonorar istədiyini söyləyib: ”Əlil uşaqlar üçün təşkil olunan konsertdən Kərim Abbasov 500 manat istədi. Müğənni Damla umumiyyətlə xeyriyyə tədbirlərinə getmədiyini dedi”.

# Şərikli işlədir

Xanəndənin öz biznesi var



**Xanəndə Aytən Məhərrəmova ”Hüseynova bacıları” verilişində qonaq olub.**

O, pandemiya dövründə ikinci dəfə ailə həyatı qurduğunu söyləyib. Həmçinin sənətçinin arıqlaması diqqətdən qaçmayıb. A.Məhərrəmova işləri haqda da danışıb.

”Şərq” xəbər verir ki, muğam ifaçısı öz biznesinin olduğunu bildirib: ”Mağazalarım çoxdur. Şərik kimi işlədirəm”.

**Hazırladı: Samirə**

# Bir anda yox olan adam

Alimlər heyrət içindədir



*(Əvvəli səh: 16-da)*

**Yaşananlarla bağlı Moskva Fizika və Texnologiya İnstitutunun Qordey Lesovik dünyanın diqqətini çəkən bir açıqlama verib.**

Açıqlamada sözügedən hadisənin fizika qanunlarına zidd olsa da, kainatın idarə edilməsiylə bağlı mövcud elmi mülahizələri kökündən dəyişdirmə potensialına malik olduğu deyilir. Q.Lesovik ”zamanın termodinamik yönünün tərsinə hərəkət edən bir durumu süni olaraq yaratmağı bacardıq. Bunu, Kvant fizikası, ”zaman maşını” vasitəsilə təcrübədən keçirə bildik”, söyləyib.


**“ƏMLAK HƏRRAC MƏRKƏZİ” MMC**
**HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN**

Bakı şəhəri Şəmkir rayon İcra Şöbəsinin 28.04.2021-ci il tarixli, 3158/16-13 saylı sifarişi ilə (daxil olma 17.05.2021) ”Opel Vektra” minik markalı, 10-RR-655 qeydiyyat nişanlı avtomobil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 15 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 600 (altı yüz) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (600) 10%-i, yəni 60 (altmış) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Hərrac addımı - 6 (altı) manat.**

QEYD: Yuxarıda göstərilən hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır. 1) Fiziki şəxslər- şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə; 2) Hüquqi şəxslər- təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə; 3) Behin ödənilməsi haqqında sənəd. Hərracın qalibləri tərəfindən əmlakın dəyəri ən geci 7 (yeddi) təqvim günü ərzində hərracın sifarişçisi olan aidiyyəti İcra orqanının depozit hesabına ödənilməlidir.

***Tel: (+99412) 539-47-22 ; (+99455)745-25-56 e-mail: info@e-herrac.com***

***Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC***



**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 882



## Görən inana bilmədi

Avtomobil bir anda göyə sovruldu

**Avtomobil trolleybusun elektrik naqillərinə ilişərək qəza törədib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hadisə Ukraynanın paytaxtı Kiyevdəki bir magistral yolunda baş verib. Magistral yolda hərəkət edən bir avtomobil qəfildən trolleybusun elektrik naqillərinə ilişib. Bu zaman avtomobil hündürlüyə qalxıb və aşıb. Həmin anlar təhlükəsizlik kamerasına əks olunub. Yerli media sürücünün sərxoş olduğunu və hadisədən şoka düşdüyünü deyib.

**Aynurə**

## 13 milyon dollarlıq İncil oğurlanıb

3 şübhəli şəxs cinayət başında tutulub



**Türkiyənin Qırıqqala bölgəsində ceyran dərisindən hazırlanmış 26 səhifəlik İncil ələ keçirilib.**

"Şərq" "Trthaber.com"a istinadən bildirir ki, tarixi əsər üçün 13 milyon dollarlıq bazarlıq edən 3 şübhəli şəxs cinayət başında tutuldu.

Əsərdə erkən xristian dövrü və Hz. İsa peyğəmbərin çarmıxa çəkilməsinin ikonografik şəkillərini ehtiva edən bir Arami əlyazması ilə əksini tapıb.

**Yeganə**

## 11 gün orda yaşayıb

Koronavirus tələbəni "ağaca dırmaşdırdı"



**Hindistanın Telinqana ştatının Nalqonda şəhərinin 18 yaşlı sakini Şiva koronavirusa yoluxduqdan sonra özünü təcrid etmək üçün 11 gün ağacın başında yaşayıb.**

Big.az xəbər verir ki, bu barədə İndia.com yazır. Beləki, mayın 4-də virusa tutulduğunu öyrənən Şiva həyətlərində olan ağacın budaqlarında özünə yataq düzəldib və ailəsini yoluxdurmamaq üçün burada qalmaq qərarına gəlib. Tələbə vaxtının çoxunu telefonla danışaraq keçirir, yemək və digər lazımi əşyaları ona özünün qurduğu xüsusi vasitə ilə yuxarı göndərirlər. Şiva Hindistanın Heydərabad şəhərindəki universitetdə oxuyur və burada koronavirus xəstələrinin sayı kəskin artdığı üçün bir ay öncə evinə qayıdıb.

## 14 yaşlı qız evli oğlana qoşulub qaçdı



**İstanbulun Beyoğlu səmtində 14 yaşlı qızın bir ay əvvəl ailə quran gəncə qoşulub qaçması ailələr arasında kütləvi davaya səbəb olub.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, qızın valideynləri onu geri qaytarmaq üçün Mehdi D.-nin evinə gəliblər. İki ailə arasında yaşanan qarşıdurma bıçaq, zopaların işə düşməsi ilə böyüyüb. Nəticədə bir nəfər bıçaqlanıb. Baş verənlər kameraya düşüb.



# Cəhənnəm həyatı yaşatdı

*6 ay arvadını zəncirlə dama bağladı*



**Oktay Gülər adlı şəxsin həyat yoldaşına dəhşətli işgəncələr verməsi faktı aşkarlanıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, aparılan istintaq tədbirləri zamanı məlum olub ki, Oktay Gülər adlı şəxs altı aydır ki, dini kəbinlə ailə həyatı qurduğu həyat yoldaşına işgəncələr yaşadıb. İlk ailə həyatı qurduqları gündən E.A.-nın həyat yoldaşı ona dəfələrlə işgəncələr verib. Ancaq Oktay ona qarşı səsləndirilən ittihamları rədd edib. O, ifadəsində son döyülmə hadisəsində spirtli içki qəbul etdiyini və heç nə xatırlamadığını söyləyib. Qadın isə ifadəsində bildirib ki, sonuncu dəfə siqaret qutusunun əskik olması səbəbindən mayın 16-sı tarixində kəmərlə bərk döyülüb. O qeyd edib ki, onun qaçmağı da möcüzə olub: "Oktay heyvanlarına yem vermək üçün çölə çıxdı. Ancaq ayaqlarımı zəncirləməyi unutdu.



**Məlahət**

*(Davamı səh: 15-də)*

## Bir anda yox olan adam

Alimlər heyrət içindədir



**Heç bir izah verə bilmirlər. Tarixdə belə əhvalatlar çox olub. Kimsə zaman yolçuluğu etdiyini, bu gündən keçmişə, keçmişdən gələcəyə, gələcəkdən də bu günə təkrar qayıtdığını iddia edib.**

Buna inananlar da olub, uydurma sayanlar da. Bizim "Sehirli xalat" filmində pioner Rəşid keçmişə "getmirmi"?! Düzdü, o kino idi və zaman yolçuluğunu da sehirbaz "İo Kio baba" gerçəkləşdirmişdi. Yəni bildiyimiz gözbağlıca. Sirkdə edirlər belə əməlləri. "Şərq" "haber.com"a istinadən bildirir ki, ABŞ-ın Cənubi Karolina ştatında bu günlərdə yaşanan hadisə isə hətta alimləri də çıxılmaz vəziyyətdə qoyub. Onlar gördüklərinə heç bir elmi izah verə bilmirlər. Təhlükəsizlik kameraları tərəfindən qeydə alınmış görüntülərin sosial şəbəkələrdə yayılması əsl təşviş effekti yaradıb. Kameraların görüntülədiyi adamın hərəkətləri dünyanı heyrətə salıb. Görüntülərdə nə var? Başlanğıcda sadəcə sağa-sola addımlayan adam görünür. Sonra isə bir anın içində görüntüdən itir. Daha sonra kamerada işıq parıltısı diqqət çəkir. Parıltı bir neçə dəfə təkrarlanır. Güclü işıq verən lampaya oxşar bir şey yanıb-sönür. Və o adam gözdən itir. Təhlükəsizlik kameralarından da silinir. Video ilə bağlı "bu, bir montajdır" deyənlərlə yanaşı, inananlar da var.

*(Davamı səh: 15-də)*

**Məlahət**



## 400 min qazandı

Çəkilişlər 6 saat davam edib

**Bir moda markasının hazırladığı çimərlik geyimləri üçün obyektiv qarşısına keçən aparıcı Burcu Esmersoy bunun üçün Marmarisə yollanıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, geyimlərin müəllifi də aparıcı özüdür.

44 yaşlı Burcu 6 saat davam edən çəkilişlərdə 12 dəst dəyişib. Bunun qarşılığında isə o, 400 min lirə (təxminən 81 min manat) alıb.

*Qeyd edək ki, Esmersoy 2014-cü ildə çəkildiyi reklamdan 300 min lirə (61 min manat), 2016-cı ildə vitamin tanıtımı üçün 500 min lirə (102 min manat) alıb. İnstaqram səhifəsindəki paylaşımların hər biri üçün isə aparıcı 25 min lirə (5 min manat) alır.*